# General oğlunun ölkədən çıxışına "stop" qoyuldu


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№03 (3246) 24 Yanvar / 2023-cü il  Həftədə 1 dəfə çıxır  Qiymәti: 60 qәpik


ANA XƏBƏR

## ADP Avropa Parlamentinin qətnaməsinə etiraz etdi

# Yeni dünya düzəni və "Yuqo Rusiya" projesi...

Və yaxud ABŞ siyasətinin "patriarxı" hesab olunan Henri Kissincer Ukrayna müharibəsi ilə bağlı fikrini niyə dəyişdi?




8-9

GÜNÜN NƏBZİ

Siyasət

## Putini daha ağır günlər gözləyir...



Elxan Şahinoğlu: "Fransa və Almaniya Ukrayna müharibəsini ABŞ-a yükləmək istəyirlər"

3

Fakt

## Ermənilər Ukraynadan dronlar oğurlayıb

Brovarı şəhərində nazir və müavininin də öldüyü dəhşətli helikopter qəzasının sirri ortaya çıxır...

6

Xəbər

## Talıbov haqda daha bir şok fakt

O, Konstitusiyaya məhəl qoymadan öz adamlarını hakim təyin edib

2

Hüquq

## "Şlyapa Zahid" haqda şok faktlar açıqlandı

Nəcməddin Sadıkovun yaxın adamı hərbçiləri evində fəhlə kimi işlədib

7

Sənət

## Ənənəvi və klassik musiqiyə dair

12

Müsahibə

## "Başqa yolum qalmır, ya ölməliyəm, ya da"



Naxçıvan FHN-nin sabiq əməkdaşı rəhbərlik haqda şok faktları açıqladı

8

Layihə

## Avropa Parlamentinin Azərbaycan haqda qərəzli qətnaməsi



Zaur Məmmədov: "Ermənistana xüsusi monitorinq missiyasının 2 il müddətinə göndərilməsi haqqında qərar veriləcək və bu, yeni müharibə deməkdir"

5

Toplum

## Kürdəmir sakini yenicə tikdiyi evin qəsdən yandırıldığını iddia edir

Hərbçi Şamil Qarayev deyir ki, hadisəni törədən şəxsin kimliyi barədə polisə məlumat versə də, cinayət faktı ilə bağlı heç bir araşdırma aparılmır

Kürdəmir rayonu, Qaramahmudlu kənd sakini Qarayev Şamil Adil oğlu tərəfindən "Hürriyyət" qazetinin redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə müraciət edən şikayətçi bildirir ki, qardaşı ilə birgə yaşadığını qəsdən od vurulub, lakin cinayətkar axtarılmır.

10

Ölkə

## Obyektini ələ keçirmək üçün borclandırdı, sonra isə...

Və yaxud 64 min manatdan 31 min manat çıxanda necə "64 min manat" qalır?

Bakı şəhəri, Əliyar Əliyev küçəsi ev 79, mənzil 1 ünvanında yaşayan Qasımov Müzəffər Əzim oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, eləcə də Konstitusiya Məhkəməsinin rəhbərliyinə müraciət edən şikayətçi tanıdığı şəxs tərəfindən şərləndiyini və məhkəmələrin bu faktı düzgün araşdırmadığını, ədalətsiz qərar çıxardığını bildirir.

4

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№03 (3246) 24 Yanvar / 2023-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

# Putin rejimi təşviş içində

## Moskvada binaların başına hava hücumundan müdafiə sistemləri yerləşdirilir







**Qərbin ağır silah yardımı nəticəsində Ukraynanın itirilən torpaqları geri qaytarmaq üçün başlatdığı hücum Rusiyada təşviş yaradıb.**

Qafqaz.media xəbər verir ki, sosial şəbəkələrdə bu narahatçılığın görüntüləri yayılmaqdadır. Belə ki, Kiyev administrasiyasının paytaxta genişmiqyaslı hücum həyata keçirəcəyi ilə bağlı narahatlıqlar dərinləşərkən, Ukrayna ordusunun cavab zərbələrinə qarşı tədbir görən Rusiya son vaxtlar ictimai və inzibati binaların damlarına hava hücumundan müdafiə sistemləri quraşdırıb.

Rusiya mətbuatında çıxan xəbərlərdə Rusiya prezidenti Vladimir Putinin Moskvadan kənardakı iqamətgahının bağçasına da "Pantsir" yerləşdirildiyi bildirilib. Rusiya hakimiyyəti məsələ ilə bağlı rəsmi açıqlama verməsə də, rusiyapərəst "Telegram" kanalı "Hərbi Xəbərçi" bu xəbəri etiraf edib və bunu 12 milyon əhalisi olan Moskvanın hazırda həssas vəziyyətdə olduğunun sübutu kimi təqdim edib. Rusiya hakimiyyəti məsələ ilə bağlı rəsmi açıqlama verməsə də, Qərb mediası Ukraynanın Moskvaya böyük hücumu ilə bağlı narahatlıqların dərinləşdiyini iddia edib. Qərb mətbuatında yer alan xəbərlərdə Rusiya rəhbərliyinin paytaxtın təhlükəsizliyi ilə bağlı narahat olduğu və Putinin təcili bir qərarla Moskvanın müdafiəsini gücləndirmək istədiyi irəli sürülüb.

### Əyləncə səhifəsi

## Futbol tarixində ilk dəfə hakim ağ vərəqə göstərdi




**Qadınlar arasında Portuqaliya kubokunun 1/4 final mərhələsinin "Benfika" - "Sportinq" matçında hakim tarixdə ilk dəfə ağ vərəqə göstərib. Hurriyyet.Az xəbər verir ki, bu barədə "Sport Bible" məlumat yayıb.**

Oyun zamanı futbolçulardan biri xəstələnib və hər iki klubun həkim briqadaları meydana çıxıblar. Həkimlər idmançıya kömək etdikdən sonra hakim onlara təşəkkür olaraq ağ vərəqə göstərib. Stadiondakı azarkeşlər hakimin bu qərarını alqışlarla qarşılayıblar.

Görüş "Benfika"nın 5:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Ağ kartlar Portuqaliyada yeni bir təşəbbüsdür. Komandaları cəzalandırmaq üçün nəzərdə tutulan sarı və qırmızılardan fərqli olaraq, klubları ədalətli oyuna görə tərifləmək əvəzinə ağ vərəqə göstərilir. Yeni ideya idmanda etik dəyərləri təbliğ etmək məqsədi daşıyır.

## Beyonse bir saatlıq çıxışına görə 24 milyon dollar alıb



**Beyonse 2018-ci ildən bəri ilk dəfə "Atlantis The Royal Hotel"in açılışı münasibətilə Dubayda özəl konserti ilə səhnəyə çıxıb.**

Müğənni bir saatlıq çıxışına görə 24 milyon dollar alıb.

Bildirilir ki, təşkilatçılar tamaşaçılara konserti videoya çəkməyi qadağan ediblər, lakin sosial şəbəkələrdə ifaçının görüntüləri peyda olub.

41 yaşlı müğənni ictimaiyyət qarşısına qızılı-çəhrayı korset paltarı və çəhrayı corabda çıxıb. Başqa bir nömrə üçün o, parlaq sarı rəngli, döşəməyə qədər uzanan paltar seçib.

# Korotçenko mağazadan Azərbaycan şirəsi aldı, ermənilər onu "faşist" adlandırdı...



**Rusiyalı hərbi ekspert İqor Korotçenko Moskvadakı mağazaların birində olarkən rəfdə Azərbaycan və Ermənistan istehsalı olan şirələrin dayandığını görüb. Korotçenko "AzNar"ın istehsal etdiyi Azərbaycan məhsulunu seçib və müvafiq statusu öz "Facebook" səhifəsində paylaşıb. O, bu seçimini onunla əsaslandırıb ki, Azərbaycanda istehsal olunan şirə daha yaxşı qablaşdırılır və keyfiyyəti ciddi nəzarətdən keçirilir, ən əsası isə Azərbaycan "Rusiya üçün dost ölkədir".**

Korotçenko yazır:

"Mən Azərbaycan şirəsi almışam. Niyə? Butulka, qablaşdırma, etiket daha cəlbedici və estetikdir. Amma ən əsası odur ki, Azərbaycan yaxşı ölkədir, Rusiyaya dostdur. Rusiyaya ixrac edilən Azərbaycan məhsullarının keyfiyyəti ciddi nəzarətdən keçirilir.

Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi hökm sürür, Rusiya Federasiyasına qarşı təhqiramiz bəyanatlar eşidilir, İrəvan Rusiya hərbi bazasını çıxarmaqla, KTMT-dən çıxmaqla hədələyir. Ona görə də mən və digər ruslar erməni məhsulunu almayacağıq: nankor ölkəni, nankor cəmiyyəti niyə maliyyələşdirməliyik? Elə deyilmi?".

Rusiyalı ekspertin bu paylaşımı bütün dünya ermənilərini qəzəbləndirib. Onlar "Facebook" administrasiyasına kollektiv şikayət göndərərək Korotçenkonun yazısının "faşizm xarakteri daşıdığı üçün" silinməsini tələb ediblər. Bu şikayətlərdən sonra "Facebook" ekspertin yazısını silib.

Ekspert növbəti yazısında bunları qeyd edib:

"Yaxşılıq pisliyə qalib gəlir! Aydındır!

Dünən bir mağazadan Azərbaycanın nar şirəsini almağa üstünlük verdim. Erməni məhsulu almadım deyə nəinki Ermənistan vətəndaşları, hətta dünyadakı erməni diasporunun üzvləri narahat oldular. Bu səbəbdən, onlar mənim yazımla bağlı "Facebook" rəhbərliyinə kütləvi şikayətlər göndərməyə başladılar.

ABŞ və Fransadakı erməni diasporlar fəallarının sayəsində mənim hesabıma edilən şikayətlərin sayı bir neçə on mini keçdi, bundan sonra qeyd olunan yazım "faşizm təbliğatı"na görə silindi.

Bununla belə, hörmətli oxucular, sizin reaksiyanız və göstərdiyiniz dəstəyiniz sayəsində "Facebook" mənim hesabımı blokdan çıxarmağa və nəşri öz yerinə qaytarmağa məcbur oldu. Azərbaycan nar şirəsi iç!"

Ermənilərin reaksiyası təkcə "Facebook" administrasiyasına şikayətlər göndərməklə bitməyib. Ermənistanın siyasi dairələrində Korotçenkonun postu ətrafında da qızğın müzakirələr gedir.

Bütün bunlara rəğmən, Korotçenko postunu "Qarabağ Azərbaycandır!" şüarı ilə tamamlayıb.


Игорь Коротченко
1 день ·

В Армении в политологических кругах развернулась бурная дискуссия по поводу моего поста в Фейсбуке. Уже почти не ругают. Звучат призывы изучать мой опыт и внедрять его в практику ведения Арменией информационной войны.

Вот просто шедевральное высказывание:

Политтехнолог Карен Кочарян заявил, что реклама Игорем Коротченко азербайджанского гранатового сока всего лишь орудие для антиармянских заявлений.

Понимаю, что в глазах армянских политологов, я - великий, но не до такой же степени! Ребята, вы там совсем уже ку-ку?

Долго смеялся!

1 тыс. 116 комментариев Поделились: 29

Нравится Комментировать Поделиться

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Talıbov haqda daha bir şok fakt

## O, Konstitusiyaya məhəl qoymadan öz adamlarını hakim təyin edib



**Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədri olan zaman öz yaxın adamlarını hakim vəzifəsinə təyin edərkən Konstitusiyanın tələblərinə əməl etməyib.**

Hurriyyet.az xəbər verir ki, Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin I bəndinə əsasən seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının 10.06.1997-ci il tarixli Qanununun 93-cü maddəsinə görə Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsinin birinci hissəsinə uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.

Amma Vasif Talıbovun kadrlarına Konstitusiyanın tələbləri keçərli deyilmiş.

Çünki Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 44-cü maddəsinin VI bəndinə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

Aşağıda adlarını qeyd edəcəyimiz hakimlərin iş təcrübəsi 5 il yox, 4 il hesablanıb. Onlar hakim təyin edilərkən Konstitusiyanın tələbinə əsasən hüquqşünas ixtisası üzrə 5 il iş təcrübəsinə malik olmalı idilər.

Bu barədə vahid məhkəmə portalında da məlumat əldə etmək mümkündür.

Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinin sədri Məmmədov Hüseyn Məmməd oğlu Naxçıvan Dövlət Universitetinin hüquq fakültəsini 2000-ci ildə bitirib. Amma 2003-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə hakim təyin edilib.

Naxçıvan MR Hərbi Məhkəməsinin sədri Həsənov Polad Vəli oğlu isə Naxçıvan Dövlət Universitetinin hüquq fakültəsinin 2005-ci ildə bitirib. Cəmi 3 il sonra Culfa Rayon Məhkəməsinə hakim təyin edilib.

Naxçıvan Şəhər Məhkəməsinin sədri Məmmədov Qabil Neymət oğlu da Naxçıvan Dövlət Universitetinin hüquq fakültəsi 2000-ci ildə bitirib. 2003-cü ildə Şərur Rayon Məhkəməsinin hakimi təyin olunub.

Culfa Rayon Məhkəməsinin sədri Məmmədov Mehrab Fərmayıl oğlu 2010-cu ildə hüquq fakültəsini bitirib. 2013-cü ildə hakim olub.

Qeyd edək ki, bütün bu məlumatlar vahid məhkəmə portalında yer alır.

# ADP Avropa Parlamentinin qətnaməsinə etiraz etdi




## Partiya yetkililəri bu qətnamənin sırf ermənipərəst mövqedən qəbul edildiyini bildirdi

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi vəziyyətə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, İdarə Heyəti Avropa İttifaqının Azərbaycan əleyhinə qəbul etdiyi qətnaməyə münasibət bildirib. Qətnamədə guya Azərbaycanın Ermənistana təcavüz etməsi, eko-fəalların Xankəndi-Laçın yolunu bağlamaqla Qarabağ iqtisadi rayonunda yaşayan erməniləri blokadaya alması barədə əksini tapan müddəaların real gerçəkliyi əks etdirmədiyinə diqqət çəkən partiya yetkililəri bu qətnamənin sırf erməniperəst mövqedən qəbul edildiyini bildirib və ölkəmiz əleyhinə yönələn bu cür qətnaməni qətiyyətlə pisləyib.**

İdarə Heyəti Ermənistanın tələbləri əsasında Aİ tərəfindən Qarabağ ərazisinə daha böyük tərkibdə missiyanın yerləşdirilməsi məsələsinə də münasibət bildirib və Azərbaycanın icazəsi olmadan belə bir addımın atılmasını beynəlxalaq hüquq normalarına zidd olmaqla Azərbaycanın suveren hüquqlarına qarşı yönəlik addım kimi dəyərləndirib. Qeyd edilib ki, öz ərazilərində bu cür problemlərin həllini suveren dövlət kimi həll etməyə çalışan bir sıra Avropa dövlətləri Azərbaycana münasibətdə ikili standarta və beynəlxalq hüquq adından spekulyasiyalara yol verir. Bu cür yanaşmaların, diqtə edilən şərtlərin 44 günlük Vətən savaşından sonra artıq geridə qaldığına diqqət çəkən partiya rəsmiləri Azərbaycanın yurisdiksiyasına daxil olan Qarabağ iqtisadi rayonunda öz suveren hüquqlarını sərbəst həll etməyə qadirdir və bu hal beynəlxalq hüququn predmetinə çevrilə bilməz.

İdarə Heyəti Baş nazirin müavini Yaqub Əyyubov və övladlarının adı ilə bağlı dövrü mətbuatda yer alan korrupsiya faktına diqqət çəkib. Qeyd olunub ki, hələ bundan əvvəl onun Rusiya ilə silah sövdələşməsində imzasının olması, Rusiya tərəfindən orden və medallarla təltif edilməsi, bütün davranışlarında "beşinci kolonun" nümayəndəsi kimi özünü təqdim etməsi cəmiyyətmizdə birmənalı qarşılanmayıb və bu silah alverində baş verən manipulyasiyalar həmin şəxsin Tərtər cinayətlərində bu və ya digər formada əlinin olmasını ortaya qoyur. İdarə Heyəti Y.Əyyubovun adı keçən məsələ ilə əlaqədar hüquq mühafizə orqanlarının araşdırma aparılması, Baş nazir müavinin vəzifədə qalıbqalmaması məsələsinə baxılmasının vacibliyini diqqətə çatdırıb.

İdarə Heyəti Almaniya Xarici İşlər Nazirinin Rusiyanın Ukraynada törətdiyi hərbi cinayətlərlə bağlı adı çəkilən ölkənin hakimiyyət nümayəndələrinin beynəlxalq məhkəmə qarşısına çıxarılması barədə bəyanatını təqdir edib və beynəlxalq ictimaiyyəti bu bəyanatı dəstəkləməyə, Rusiyaya qarşı ən ağır beynəlxalq sanksiyaların tətbiq edilməsi ilə bağlı çağırışları müdafiə etməyə çağırıb.

İdarə Heyəti son vaxtlar hakimiyyət nümayəndələrinin Qarabağda qeyri-qanuni fəaliyyət göstərən separatçı rejimlə danışıqlar aparması barədə səslənən bəyanatlara münasibət bildirib və bu cür danışıqların yalnız Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən, son otuz ildə millətimizə qarşı törədilən qanlı cinayətlərdə əli olmayan şəxslərlə aparılmasının mümkünlüyünü qeyd edib və danışıqların aparılması barədə xalqımızın mütəmadi olraraq məlumatlandırılmasının vacibliyini diqqətə çatdırıb. İdarə Heyəti ölkə başçısının Qarabağ iqtisadi rayonu üzrə səlahiyyətli nümayəndənin təyin edilməsi barədə qərar vermısini və səlahiyyətli nümayəndə vasitəsi ilə Qarabağda yaşayan, vətəndaşlığımızı qəbul edən ermənilərlə danışıqlar aparılmasını məqbul hesab edib.

**Hazırladı: KƏNAN**

# General oğlunun ölkədən çıxışına "stop" qoyuldu



**Polis Akademiyasının keçmiş rəisi, general-mayor Ramiz Nağıyevin oğlunun ölkədən çıxışına "stop" qoyulub.**

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan Nağıyev Vüqar Ramiz oğlunun İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsi vergi borcu yaranıb. Qaynarinfo.az xəbər verir ki, borc qaytarılmadığından onun ölkədən çıxışı müvəqqəti məhdudlaşdırılıb.

Bundan sonra Vüqar Nağıyev işə yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə müraciət edib.

Apardığımız araşdırmaya görə, Vüqar Nağıyevin Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsinə 23 min 440 manat 97 qəpik vergi borcu var.

Qeyd edək ki, general oğlunun adı 2020-ci ildə koronavirus (COVID-19) pandemiyasından z?r?r ç?kdiyin? gör? muzdlu içil?rə ?m?k haqqının mü?yy?n hiss?sinin öd?nilm?si üçün dövl?td?n maliyy? d?st?yi almış vergi öd?yicil?rinin siyahısında yer alır.

Xatırladaq ki, Vüqar Nağıyev həyat yoldaşından qalmaqallı şəkildə boşanması ilə KİV-lərdə məlmatlar dərc edilib.

# Neftçalada vəzifəli şəxs həbs olundu



**Baş Prokurorluq ilə Neftçala rayon Prokurorluğu Neftçala rayonu ərazisində birgə əməliyyat keçirib.**

Hurriyyet.Az xəbər verir ki, keçirilən əməliyyat zamanı Neftçala bələdiyyəsinin sədri Rövşən Quliyev saxlanılıb və məhkəməyə göndərilib.

R. Quliyev sənədlərin saxtalaşdırılması və bir sıra ciddi qanun pozuntularında ittiham olunur.

Neftçala rayon Məhkəməsinin qərarı ilə R.Quliyev barəsində martın 5-ə qədər həbs qətimkan tədbiri seçilib.

## ELAN

**Mənzil Kommunal Təsərrüfat Birliyi 09.04.2022-ci il tarixli N 012856, N 012859, N 012861, N 012865, N 012866, N 012867, N 012870 qeyri-yasayış sahələrinin istismarı üçün mədaxil qəbzləri itdiyi üçün etibarsız sayılır(unvan: Nərimanov MKTB).**

## Allah rəhmət eləsin!

**Sərdar Cəlaloğlu və partiyanın İdarə Heyətinin üzləri ADP sədrinin müavini Murad bəyə bibisi Ədalət xanımın vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**
**Allah rəhmət eləsin!**



# Putini daha ağır günlər gözləyir...

## Qərbin Ukraynanı yeni və müasir silahlarla təchiz etməsi Rusiyanı daha ağır durumla üz-üzə qoya bilər

Rusiya Təhlükəsizlik Şurası rəhbərinin müavini Dmitri Medvedyev bildirib ki, Qərbin Ukraynaya yeni silah tədarükləri fonunda Rusiya üçün çətin vaxtlar başlayacaq. Bu barədə axar.az-da yer alan informasiyaya görə, Medvedyev ölkəsinin düşmənlərinin Rusiyaya qeyri-müəyyən müddətə çətinlik yaşatmaq, daha doğrusu, onu məhv etmək niyyətləri olduğunu iddia edib: "Qərbin bunun üçün kifayət qədər silahı var və lazım gələrsə, yenilərinin istehsalına başlaya bilər. Ona görə də illüziyalara ehtiyac yoxdur. Bundan hansı nəticə çıxarmaq olar? Birincisi, çox çətin olacaq".

Həqiqətən də əgər proseslər bu cür davam edərsə, yəni Qərb ölkələri Ukraynanı yeni və ən müasir silahlarla təchiz etməkdən çəkinməsələr, o zaman Rusiya daha ağır durumla üz-üzə qala bilər. Məsələn, ABŞ Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsinin sədri Maykl Makkol hesab edir ki, ölkəsi Krım ərazisinə zərbələr endirmək və Rusiyanı məğlub etmək üçün Ukraynaya ATACMS uzaqmənzilli taktiki ballistik raketlər göndərməlidir. Fransa prezidenti Emmanuel Makron isə Ukraynaya ”Leclerc” tanklarının da göndərilməsinin istisna edilmədiyini qeyd edib. Mərakeş Krallığı isə öz növbəsində, artıq Ukraynaya Çexiyada təkmilləşdirilən qeyri-müəyyən sayda T-72B tanklarını təhvil verib.

Bu arada, Belarus Dövlət Sərhəd Komitəsinin yaydığı məlumatda isə Ukraynanın Belarusla sərhədə 17,2 min hərbçi yerləşdirdiyi bildirilir. Belarus prezidenti Aleksandr Lukaşenko isə qeyd edib ki, ölkəsi ətrafında hərbi-siyasi və iqtisadi vəziyyət heç vaxt olmadığı qədər çətindir.

### “Paris və Berlin bir tərəfdən Rusiyanı qınayır, o biri tərəfdən Ukrayna torpaqlarının işğalı hesabına Kremllə barışıq gününü gözləyirlər”

Beləliklə, Fransanın Ukraynaya ”Leclerc” tanklarını göndərməsi ilə bağlı mövqeyini bildirən ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Emmanuel Makron Kiyevə tankları 3 şərtlə verə biləcəyini deyib: ”Birincisi, tankların verilməsi eskalasiyaya səbəb olmamalıdır. İkincisi, tanklar Ukraynanın müdafiə qüdrətini real şəkildə artırmalıdır. Üçüncüsü isə Ukraynaya verilən tanklar Fransanın müdafiə qabiliyyətini aşağı salmamalıdır. Məşhur lətifədə deyildiyi kimi, ”daha denən ki, paraşüt vermək istəmirəm”. Almaniya kansleri Olaf Şolts da Ukraynaya tank verməyi uzadır. Paris və Berlin Ukrayna müharibəsini ABŞ-a yükləmək istəyirlər, yəni Kiyevə nə hərbi texnika veriləcəksə, Vaşinqton qabağa düşsün”. Vaxtilə Avropanın göbəyindəki Bosniya müharibəsini də ABŞ-a yüklədiklərini deyən politoloq hesab edir ki, Deyton sazişi olmasaydı, Paris və Berlin seyr etməkdə davam edəcəkdilər: ”İndi də Paris və Berlin bir tərəfdən Rusiyanı qınayır, o biri tərəfdən Ukrayna torpaqlarının işğalı hesabına Kremllə barışıq gününü gözləyirlər”.

### “Rusiya bütün imkanları ilə Belarusu savaşa çəkmək istəyir, Lukanşenko isə başa düşür ki, bu, ağır nəticələrə səbəb ola bilər”

Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov isə bildirib ki, ABŞ-ın Müharibə Araşdırmaları İnstitunun məlumatına görə, Rusiyanın Belarus ərazisindən Ukraynaya hücumu gözlənilir: ”Bildirilir ki, yaxın həftələrdə reallaşmasa belə, ehtimal var: ”Rusiyanın müdafiə naziri Sergey Şoyqu yanvarın 19-da belaruslu həmkarı Viktor Xreninlə telefonla ikitərəfli hərbi əməkdaşlıq barədə danışıb. Həmçinin, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Minskdə Belarus prezidenti Aleksandr Lukaşenko ilə görüşüb. Xüsusilə, 2023-cü ilin sonuna doğru Rusiya Belarus ərazisindən hücuma keçə bilər. Rusiya 2022-ci ilin payızında illik hərbi çağırış dövrünü başa vuracaq. 2023-cü ilin payızına qədər isə bir neçə ehtiyat çağırış həyata keçirilə bilər. Rusiyalı fəallar Rusiyanın Belarusdan hücuma keçmək ideyasını pisləyirlər. Onların fikrincə, bu, pis ideyadır”. Qeyd etmək lazımdır ki, son vaxtlar Moskva ilə Minsk arasında təmaslar intensivləşib. Bu, əlbəttə, Ukraynadakı müharibə ilə bağlıdır. Rusiya bütün imkanları ilə Belarusu savaşa çəkmək istəyir. Minsk isə hələ ki, müqavimət göstərir. Çünki Prezident Aleksandr Lukanşenko başa düşür ki, bu, ağır nəticələrə səbəb ola bilər”.



Elxan Şahinoğlu: "Fransa və Almaniya Ukrayna müharibəsini ABŞ-a yükləmək istəyirlər"



Kənan Novruzov: "Belarus savaşa qoşularsa, Qərbin təzyiqləri ilə üzləşəcək və nəticədə sanksiyalara uzun müddət tab gətirə bilməyəcək"

Belarusun imkanlarının Rusiyanınkı qədər çox olmadığını vurğulayan ekspertin fikrincə, Minks savaşa qoşularsa, Qərbin bu dövlətə təzyiqləri artacaq: ”Belarus isə ehtimal edilən təzyiqlərə, o cümlədən də sanksiyalara uzun müddət tab gətirə bilməz. İkinci bir tərəfdən getdikcə Rusiyanın da Belarusa təzyiqləri artmaqdadır. Belə demək mümkünsə, Minsk ”iki od arasında” - Qərblə Rusiyanın arasında qalıb. Lukaşenko hər iki tərəfi qane etməyə çalışır. Amma bu da sonsuzadək mümkün deyil. Rusiyanın işi getdikcə çətinləşir. Kreml rəhbəri artıq alternativ variantlar barədə düşünür. Bunlardan biri isə şübhəsiz ki, Belarusda yeni cəbhənin açılmasıdır. Bu, döyüş meydanındakı vəziyyəti Rusiyanın xeyrinə dəyişə bilər. Belarusdan cəbhə açılma ehtimalı hələ ki, real görünmür. Lukaşenko bunun qarşısını almaq üçün əlindən gələni edəcək. Çünki cəbhənin açılması Minskin birbaşa savaşa qoşulması demək olar. Elə ona görə Lukaşenko müxtəlif bəyanatlarla, simvolik addımlarla rusiyalı həmkarının ”könlünü xoş etməyə çalışacaq”. Lakin buna baxmayaraq, savaş uzandıqca Belarusdan yeni cəbhə açılma ehtimalı artır”.

### “ABŞ və müttəfiqləri Rusiya-Ukrayna savaşının uzamnası üçün hər şey edəcəklər”

”ABŞ-ın Müharibə Araşdırmaları İnstitutunun məlumatına görə, son günlərdə Moskvada hava hücumundan müdafiə sistemləri quraşdırılır. Bildirilib ki, bu, Kremlin Rusiya əhalisini Ukraynaya qarşı uzunmüddətli müharibəyə hazırlamaq məqsədi daşıyır” deyən Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti qeyd edib ki, proqnoza görə, Kreml müharibənin Rusiya cəmiyyəti üçün daha təhlükəli yeni ”təsviri”ni yaratmaq üçün Moskvada hava hücumundan müdafiə sistemləri yerləşdirib: ”Qərb analitiklərinin hesabatında diqqət çəkən bir neçə məqam var. Bunlardan birincisi məhz paytaxda hava hücumundan müdafiə sistemlərinin quraşdırılmasıdır. Bu addımı iki kontekstdən qiymətləndirmək olar. Birincisi, görünür, hakimiyyət başa düşür ki, müharibənin miqyasının genişlənməsi və Rusiya ərazisinə keçməsi artıq realdır. Qərb dövlətlərinin Ukraynaya verdiyi uzaq mənzilli raketlər və ağır tanklar bu ehtimalı artırır. Doğrudur, savaşın Rusiya ərazisinə keçməsi digər dövlətlərin də müharibəyə qoşulmasını zəruri edə bilər. Bu, ABŞ və müttəfiqlərinə sərf etmir. Buna baxmayaraq, hətta fəal hərbi əməliyyatlar başlamasa belə, Rusiya ərazisində hansısa hücumların olması istisna deyil”.

Qərb və Ukrayna kəşfiyyatının fəaliyyətinin buna imkan verdiyini deyən ekspert hesab edir ki, Ukraynanın daxili işlər nazirinin həlak olduğu helikopter qəzasında Moskvanın ”əli olduğu” aşkarlanarsa, Kiyev bunun əvəzini çıxmaq istəyə bilər: ”Bu, ən azından Ukrayna ictimaiyyətinin əzmkarlığını qorumaq üçün vacibdir. Dediyim kimi, görünür, Kreml bu təhlükəni anlayır. Əlbəttə, ehtimal edilən hücumların Moskvada yox, paytaxtdan kənarda olması daha ağlabatandır. Buna baxmayaraq, paytaxda hava hücumundan müdafiə sistemlərinin quraşdırılması təsadüfi deyil. Bu, bir tərəfdən şəhərin təhlükəsizliyinin təmin olunması üçündürsə, digər tərəfdən, ictimai rəyi formalaşdırmağa hesablanıb. Hakimiyyət bu yolla xalqa vəziyyətin asan olmadığını izah etməyə çalışmaq istəyə bilər. Moskvada hava hücumundan müdafiə sistemlərinin quraşdırılması həm də ehtimal edilən növbəti səfərbərlik dalğası üçün zəmin ola bilər. Yaxın vaxtlarda səfərbərlik elan olunması gözləniləndir. O da məlumdur ki, nə Kiyevin, nə Moskvanın müharibəni yaxın vaxtlarda bitirmək fikri var. Çünki tərəflərdən birinin təklifi ilə digəri razılaşmır. Üstəgəl, nəzərə almaq lazımdır bu, heç də ancaq onların iradəsindən asılı deyil. Qərb savaşın uzanmasında birbaşa maraqlıdır. ABŞ və müttəfiqləri bunun üçün hər şey edəcəklər. Rusiya da başa düşür ki, istəsə belə, döyüşlər yaxın vaxtlarda dayanmayacaq. Elə ona görə də müxtəlif təbliğat vasitələri ilə ictimai rəyi istədiyi səmtə dəyişməyə çalışır”.

**Vazeh BƏHRAMOĞLU**

Bakı şəhəri, Əliyar Əliyev küçəsi ev 79, mənzil 1 ünvanında yaşayan Qasımov Müzəffər Əzim oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, eləcə də Konstitusiya Məhkəməsinin rəhbərliyinə müraciət edən şikayətçi tanıdığı şəxs tərəfindən şərləndiyini və məhkəmələrin bu faktı düzgün araşdırmadığını, ədalətsiz qərar çıxardığını bildirir.




# Obyektini ələ keçirmək üçün borclandırdı, sonra isə...

## Və yaxud 64 min manatdan 31 min manat çıxanda necə "64 min manat" qalır?

**"Cənab Prezident!**

Hörmətli Birinci vitse-prezident!

Bildirirəm ki, tanışım Əmirov Süleyman vasitəsilə tanıdığım Lötfi Cəbrayıl mənə şər ataraq guya mənim ona 64000 manat borcum olduğunu iddia edib. O, bununla bağlı öncə Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə (BMCMİ), sonradan isə Bakı şəhər Baş Polis İdarəsinə müraciət etmiş, müstəntiqlər Məmmədov Rauf və başqası tərəfindən istintaq araşdırılması aparılmış və qeyd olunan iddia öz təsdiqini tapmamışdır.

Sonradan Nərimanov rayon Prokurorluğu tərəfindən qərar ləğv olunaraq Nərimanov RPİ-nin müstəntiqi, polis mayoru Xosrov Şükürov tərəfindən cinayət işinin başlanması üçün araşdırma aparılmışdır. Burada da məlum iddia öz təsdiqini tapmadığına görə mülki qaydada Nəsimi rayon Məhkəməsində iddia qaldırılmışdır.

Nəsimi rayon Məhkəməsində hakim Rəşid Səmodov iddiaçı Lötfi Cəbrayılın qanunsuz olaraq, gizli yazılmış və montaj olunmuş disk yazılarına baxdıqdan və məni dinlədikdən sonra onun bizə şər atdığını sübuta yetirmiş və haqlı olaraq iddianı təmin etməmişdir. Çünki Lötfi Cəbrayılın başqasının əmlakını ələ keçirmək üçün əvvəlcə öz iddiasında Novruzov Nazimi və Əliyev Sərdarı şahid qismində göstərmişdir. Məhkəmədə isə onlara da şər ataraq, hər birini "cavabdeh" kimi təqdim etmişdir. Nəticədə, məhkəmədə də Lötfi Cəbrayıl hakim Rəşid Səmədovun suallarına cavab verə bilmədiyindən, iddiası təmin olunmamışdır".

Şikayətçinin sözlərindən belə aydın olur ki, Nəsimi rayon Məhkəməsinin qətnaməsini qəbul etməyən iddiaçı Bakı şəhər Prokurorluğuna müraciət edərək, müstəntiq Xosrov Şükürovun qərarını ləğv etdirib. Bundan sonra iş Nərimanov rayon Polis İdarəsinin müstəntiqi Elnur Məmmədov tərəfindən araşdırılıb. Lakin bu dəfə də Lötfi Cəbrayılın ona qarşı guya 64 min manat borclu olduğu haqda iddiası öz təsdiqini tapmamışdır. Bu zaman aydın olmuşdur ki, L.Cəbrayıl vaxtilə ona sələmə verdiyini iddia etdiyi pula yüksək faiz, hətta faizin də faizini hesablamaqla, M.Qasımovun 64 min manat borclu olduğunu bildirib. Lakin müstəntiqin araşdırması nəticəsində ortaya çıxıb ki, Müzəffər Qasımovun iddiaçı şəxsə, özünün ediyi kimi, faizlərin faizi də hesablanmaqla cəmi 13500 manat borcu olub.



*Şərafət Məmmədova*

Bakı şəhər sakini Müzəffər Qasımov məhkəmələrin ədalətsiz qərarından şikayətçidir...

"Mən ifadəmdə də qeyd etdiyim kimi, onda hissə-hissə ümumilikdə 59500 manat pul almışdım. Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində Cəbrayılın dostları olan iki vəkilin və müstəntiq Şöhrət Hüseynovun iştirakı ilə o, borclu olduğum pulun 31 000 manatını Bilgəh qəsəbəsindəki evində, 15000 manatını isə Xaşa-Xuna bağ evində qaytardığımı etiraf etdi. Qalan 15000 manatı isə şahidim Xəlil Astanovun yanında veridiyimi etiraf etməmişdir. Nəticədə, müstəntiq Elnur Məmmədovun araşdırmasında da mənim ona borclu olduğum öz təsdiqini tapmamışdır", - deyə Müzəffər Qasımov bildirir.

Bütün bunlara baxmayaraq, qarşı tərəf - Lötfi Cəbrayıl Bakı Şəhəri Apellyasiya Məhkəməsinə şikayət etmişdir. Məlum mülki işə hakim Şərafət Məmmədovanın sədrliyi ilə baxılmışdır. Proses zamanı hakim elan edib ki, guya, M.Qasımov ayrı-ayrı vaxtlarda L.Cəbrayıldan 36000 manat, 28500 manat, 10000 manat olmaqla, toplam 74 500 manat pul alıb. Bu səbədən, cavabdeh şəxs haqlı olaraq qeyd edir: "Necə olur ki, Cəbrayıl bütün dövlət orqanlarında istintaq gedərkən 64500 manat, məhkəmədə isə 95977 manat pul tələb edir?! Hakim isə qeyd edir ki, mən guya Cəbrayıldan 74500 manat aldığımı etiraf etmişəm. Mən Bakı Apellyasiya Məhkəməsində iştirak etməmişəm. Bu halda necə onun dediyini etiraf edə bilərəm?! Mən bütün istintaq araşdırmalarında da qeyd etmişəm ki, Cəbrayıla faizlərin faizi olmaqla, sələmə götürdüyüm puldan cəmi 13500 manat borcum qalmışdır. Şərafət Məmmədova Lötfi Cəbrayılın təqdim etdiyi hansı dövlət sənədinə və ya hansı sübuta əsaslanaraq belə qərar qəbul etmişdir? Halbuki Lötfi Cəbrayıl məhkəmədə heç bir sübut təqdim etməyib. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 14.2-ci maddəsinə əsasən, məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir. Lötfi Cəbrayıl isə, qeyd etdiyim kimi, məhkəməyə heç bir hüquqi sənəd təqdim etməmişdir".

M.Qasımov deyir ki, iddiaçı L.Cəbrayıl Bilgəhdəki evində ona 31 min manat verdiyimi etiraf etsə də, onu "ümumi borcdan" çıxmır: "O, araşdırma zamanı məndən ancaq 31000 manat aldığını etiraf etmişdir. Çünki Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin müstəntiqi Şöhrət Hüseynov 2 dəfə Cəbrayıla sual verdi ki, Müzəffər sənə Bilgəh qəsəbəsində 31000 manat pul verib? Cavab verdi ki, bəli. Soruşdu ki, bəs, 64000 manatdan 31000 manat qaytaranda neçə qalır? Yenə də Cəbrayıl cavab verdi ki, 64000 manat. Müstəntiq soruşur ki, sən Müzəffərə 100000 manat vermisən? Cavab verir ki, xeyr! Odur ki, müstəntiq Şöhrət Hüseynov Cəbrayılı başa sala bilmədiyinə görə araşdırmanı bitirdi".

Şikayətçi bildirir ki, Apellyasiya Məhkəməsinin hakimi Şərafət Məmmədova onun məhkəmədə olmadığından istifadə edərək, heç bir hüquqi sənədə istinad etmədən və hər hansı sübut olmadan ədalətsiz qətnamə qəbul etmişdir: "Görünür, hakim Şərafət Məmmədova Cəbrayılın dediklərinə əsasən qətnamə çıxarmışdır. Belə olan halda ya Şərafət Məmmədova qərarı oxuyub düzgün nəticəyə gəlməyib, ya da bilərəkdən, müəmmalı səbəblərdən ədalətsiz qətnamə qəbul etmişdir. Hakim qərarında qeyd edir ki, "açıq məhkəmə iclasında baxaraq...". Əgər məhkəmə açıq olsaydı, mən də iştirak etməli idim".

Onu da qeyd edək ki, məhkəmə zamanı iddiaçı Lötfi Cəbrayıl Müzəffər Qasımovun ondan aldığı pulu dostuna məxsus iaşə obyektinin təmirinə xərclədiyini bildirib. Cavabdeh isə bu fikirdədir ki, L.Cəbrayıl onu məqsədli şəkildə borclandırmaqla, sonda onun işlətdiyi dosyuna məxsus obyekti ələ keçirmək niyyətində olub: "Cəbrayıl iddia edir ki, mən ondan iaşə obyektinin təmiri, istilik sisteminin quraşdırılması, kanalizasiya sistemi xətlərinin çəkilməsi üçün hissə-hissə 64350 manat və 300 ABŞ dolları almışam. Hamısı yalandır, çünki həmin iaşə obeykti tamamən hazır və təmirli olub. Digər tərəfdən, 64000 manata orada yeni bir iaşə obyekti almaq olar. Cəbrayıl mənə zorla divarı sökdürmək istəyib ki, burdan qapı aç, zorla kafeyə 2000 manatlıq kondisioner, 2 ədəd paltar qurudan almaq istəyib. Lakin nə qədər turist gəlib yaşayır ki, paltarqurudan lazım olsun?! Mən ondan 10000 manat pul istəmişəm, mənə 2000 pul gətirib verib və deyib ki, 6000 manat faizini götürdüm. İranlı rəssamla fars dilində danışdıqdan sonra, 2000 manat da ona verəcəyini dedi. Çünki o, divara rəsm çəkirdi. Əgər mən onu aldadıb, pul alıb obyekti onun adına keçirəcəyimi deyib, sonradan keçirməmişəmsə, bəs nə üçün o, mənə yenidən pul veridi?!"

**(Ardı var)**

**Hazırladı: KƏNAN**

**ANONS! ANONS! ANONS!**

**Növbəti sayımızda biləcəksiniz:**

***- İddiaçı Lötfi Cəbrayıl kimdir və onun ermənilərlə nə kimi bağlantısı var?***

***- Qeyd olunan iaşə obyektini ələ keçirməkdə onun nə kimi niyyəti olub?***

***- Lötfi Cəbrayıl Müzəffər Qasımovu hansı kriminal ünsürlərlə qorxutmağa və obyekti ələ keçirməyə cəhd edib?***

***- Məlum obyektin satışı ilə bağlı hərrac keçirilsə də, sonradan Lötfi Cəbrayıl saxta sənədlərlə təkrar hərracın keçirilməsinə necə nail olub?***

***- Ümumiyyətlə, bu saxtakarlıqlarda daha hansı rəsmi şəxslərin əli olub?***

***- Ali Məhkəmə bu məsələ ilə bağlı hansı qərar verib?***

***Bu və digər sualların cavabını növbəti yazılarımızda biləcəksiniz. Bizi izləyin.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Avropa Parlamentinin Azərbaycan haqda qərəzli qətnaməsi

## Bu qətnamə regionda qarşıdurma yaratmağa və Azərbaycanla Ermənistan arasında yeni savaşa səbəb ola bilər



**Bugünlərdə, daha dəqiq desək, yanvarın 18-də Avropa Parlamenti Azərbaycanla bağlı qərəzli, qeyri-obyektiv, ədalətdən uzaq qətnamə qəbul edib. Belə ki, Rusiya sülhməramlılarının hərəkətsizliyini pisləyən avropalı deputatlar həmin qətnamədə rəsmi Bakını Laçın dəhlizinin dərhal açılmasına və Qarabağı Ermənistanla birləşdirən yolun nəqliyyat, enerji və kommunikasiyalarını pozan hərəkətlərdən çəkinməyə, BMT və ATƏT-i faktların öyrənilməsi üçün Laçın dəhlizinə missiya göndərilməsinə, eyni zamanda tərəfləri sülh danışıqlarının bərpa olunmasına çağırıblar. Azərbaycan Respublikasının Milli Məclisi isə öz növbəsində, sözügedən qətnaməyə öz etirazını bildirib və haqlı olaraq onu qeyri-obyektiv, ədalətsiz sənəd kimi dəyərləndirib.**

Bununla bağlı Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi və Avropa İttifaqı-Azərbaycan parlament əməkdaşlığı komitəsinin Azərbaycandan olan üzvlərinin bəyanatında sözügedən qətnamənin yalan və saxta məlumatlar əsasında hazırlandığı deyilir: "Biz Avropa Parlamentinin 2023-cü il yanvarın 19-da xüsusi prosedur qaydasında qəbul etdiyi qeyri-obyektiv və ədalətsiz qətnaməyə etirazımızı bildirir, yalan və saxta məlumatlar üzərində qurulmuş əsassız ittihamları qətiyyətlə rədd edirik. Fransalı nümayəndələr başda olmaqla Azərbaycana qarşı qərəzli mövqe tutan deputatların təşəbbüsü ilə müzakirəyə çıxarılmış, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağın dağlıq hissəsinin guya blokadaya alınmasının humanitar nəticələrindən bəhs edən birgə qətnamə həmin sənədin müəlliflərinin ikili standartlardan yenə də əl çəkə bilmədiklərini göstərir. Avropa Parlamentində olan həmkarlarımızın nəzərinə çatdırırıq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin imzaladıqları Üçtərəfli Bəyanatda nəzərdə tutulan öhdəliklərin önəmli bir hissəsi, xüsusən erməni silahlı qüvvələrinin Qarabağdan tamamilə çıxarılması, bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilməsi və yeni nəqliyyat kommunikasiyalarının inşası ilə bağlı öhdəliklər Ermənistanın təqsiri ucbatından indiyədək yerinə yetirilməmişdir. Aydın olur ki, Üçtərəfli Bəyanat imzalandıqdan sonra Azərbaycanın bölgədə sülh və sabitlik yaradılması üçün göstərdiyi səylər separatizmin, terrorizmin və müharibənin vəkilləri rolunu öhdəsinə götürmüş qüvvələr tərəfindən qəsdən və məqsədyönlü şəkildə zərbə altına alınır. Bu qüvvələr görmək istəmirlər ki, Ermənistanda bəzi dairələr və onları dəstəkləyən qüvvələr revanşist planlar qurur, bir daha regionu fəlakət girdabına sürükləmək xəyalları ilə yaşayırlar. Sərhəddə təxribatlar törədilir, Laçın dəhlizi vasitəsi ilə yaraqlıların və hərbi təyinatlı yüklərin, o cümlədən narkotiklərin və minaların daşınması təşkil edilir. Avropa Parlamentinin qətnaməsində iddia edilənlərin əksinə, Qarabağ ərazisində yaşayan 20 mindən artıq erməni milliyyətli vətəndaşın blokadaya alınmasından söhbət gedə bilməz. Laçın dəhlizi Rusiya sülhməramlılarının daşıdığı humanitar yüklər, "Qırmızı xaç" komitəsi nümayəndələrinin, eləcə də Qarabağda yaşayan ermənilərin, o cümlədən uşaqların və xəstələrin gediş-gəlişi üçün açıqdır".

### “Həmin qətnamə iki ölkə arasında böhranın böyüməsinə xidmət edir və sülh təşəbbüsünə hər hansı dəstəyin verilməsindən söhbət gedə bilməz”

Beləliklə, mövzu ilə bağlı mövqeyini "Hürriyyət"lə bölüşən Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədri, Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Avropa Parlamentinin Azərbaycanla bağlı qərəzli qətnaməsi ilk növbədə, Ermənistanla Azərbaycan arasında böhrana, daha doğrusu onun böyüməsinə xidmət edir: "Odur ki, həmin qətnamədə sülh təşəbbüsünə hər hansı dəstəyin verilməsindən söhbət gedə bilməz. Hesab edirəm ki, Azərbaycan əleyhinə qəbul edilən bu qətnamə rəsmi Bakını öz prinsiplərindən, haqlı mövqeyindən geri çəkilməyə məcbur edə bilməz. Ermənistan parlamentinin sədri özü də ölkəsinin Laçın dəhlizinə və orada baş verənlərə qarışmadığını qeyd edib. Bütün bunları nəzərə alaraq, qəti əminliklə demək olar ki, Avropa Parlamentinin sözügedən qətnaməsi məhz erməni lobbisinin sifarişi ilə qəbul edilib və Azərbaycana qarşı bir mərkəz halına gəlib".

Cənubi Qafqaz Təhlükəsizlik və Sülh İnstitutunun sədrinin qənaətincə, artıq Azərbaycan Avropa Parlamenti ilə əlaqələrinə yenidən baxmalı və əməkdaşlığı nəzərdən keçirməlidir: "Ermənistan diplomatiyası və lobbisi Laçın dəhlizi ilə bağlı Azərbaycan əleyhinə informasiya müharibəsində bizdən qabağa keçiblər. Bu səbəbdən də ölkəmizə qarşı bəyanatlar səsləndirilir. Halbuki, Laçın dəhlizi humanitar məqsədlər üçün açıqdır və heç bir blokadadan söhbət gedə bilməz. Düşünürəm ki, Azərbaycan diasporu və diplomatiyası bu işdə zəiflik göstərməməli, daha aktiv fəaliyyətə başlamalıdır".

### “Bu cür bəyanatlar Azərbaycanı haqq yolundan çəkindirməyəcək və separatçılar əmin olsunlar ki, vəziyyət belə davam edərsə, başlarına dəmir yumruq bir daha dəyəcək”

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov isə qeyd edib ki, son zamanlar müxtəlif beynəlxalq dairələrin Laçın yolu ilə bağlı bəyanatları və atdıqları addımlar Cənubi Qafqazın mərkəzi dövləti olan Azərbaycanı haqq yolundan çəkindirməyəcək: "Laçın dəhlizindən heç bir mina, silahlar keçirilməyəcək. Həmin dairələr nəyi təklif edirlər? Azərbaycanın öz ərazisində terrorçulara silahların göndərilməsinə göz yummasını, onların minaları yerləşdirmələrinə imkan verməsini? Absurd qətnamələrin qəbul edilməsi həmin təşkilatları gözdən salır".

Bakı Politoloqlar Klubunun rəhbəri bildirib ki, Azərbaycan beynəlxalq hüquq əsasında ərazi bütövlüyünün təmin edilməsi və suverenlik prinsiplərinin təcəssüm etdirilməsi üçün addımlarını atmaqdadır: "Separatçılar əmin olsunlar ki, vəziyyət bu cür davam edərsə, başlarına dəmir yumruq bir daha dəyəcək". Ermənistana xüsusi monitorinq missiyasının 2 il müddətinə göndərilməsi haqqında qərarın veriləcəyini vurğulayan politoloqun sözlərinə görə, bu, yeni müharibə deməkdir.

### “Avropa Parlamenti bir qrup siyasi korrupsioner deputatın canfəşanlığı və erməni lobbisinin təşəbbüsü ilə əslində Avropa İttifaqına qarşı çıxış edir”

Avropa Parlamentinin sözügedən qətnaməsini heç bir hüquqi qüvvəyə malik olmayan kağız parçası kimi qiymətləndirən politoloq Nurlan Qələndərli də bu qənaətdədir ki, bu kimi addımların Azərbaycanın müstəqil siyasətinə və ictimai rəyə təsiri yoxdur: "Avropa Parlamenti nə üçün 3-5 ermənipərəst və "pulpərəst", maddiyyatçı deputatın siyasi oyuncağına çevrilib? "Avropa dəyərləri" adlandırdıqları insan hüquqlarından, sivil dəyərlər üzərində bərqərar olunmuş cəmiyyətdən, qarşılıqlı hörmətdən danışan bu qurumun imici nə üçün belə ayaqlar altına atılır? Hər halda, qurumun özü və başbilənləri düşünsünlər, özləri bu suallara cavab versinlər! Heç bir hüquqi qüvvəyə malik olmayan "qətnamə"nin - kağız parçasının qəbulunun Azərbaycanın müstəqil siyasətinə və ictimai rəyə təsiri yoxdur. Beynəlxalq ictimaiyyət görür ki, özlərinin yazıb-oxuduqları belə "namə"lər fonunda Avropa Parlamenti siyasi şou-biznes səhnəsinə çevrilib". Nurlan Qələndərlinin fikrincə, Avropa Parlamenti bir qrup siyasi korrupsioner deputatın canfəşanlığı və erməni lobbisinin təşəbbüsü ilə Azərbaycan əleyhinə qərəzli "müzakirə" platformasına çevrilməklə, əslində, Avropa İttifaqına qarşı çıxış edir: "Çünki Azərbaycan Avropa İttifaqının etibarlı və perspektivli tərəfdaşı, mühüm regional güc mərkəzidir. Belə olan halda, Avropa Parlamenti Avropa İttifaqı əleyhinə fəaliyyətə start verib, yaxud qurum daxilində mərkəzdənqaçma, separatizmlə məşğuldur? Cavabı sadəcə və məhz özləri üçün maraqlı olar!"



Məhəmməd Əsədullazadə: "Qəti əminliklə demək olar ki, Avropa Parlamentinin sözügedən qətnaməsi məhz erməni lobbisinin sifarişi ilə qəbul edilib"



Zaur Məmmədov: "Ermənistana xüsusi monitorinq missiyasının 2 il müddətinə göndərilməsi haqqında qərar veriləcək və bu, yeni müharibə deməkdir"



Nurlan Qələndərli: "Avropa Parlamentinin sözügedən qətnaməsi heç bir hüquqi qüvvəyə malik olmayan kağız parçasıdır və bu kimi addımların Azərbaycanın müstəqil siyasətinə, ictimai rəyə təsiri yoxdur"

**Vazeh BƏHRAMOĞLU**

# Ermənilər Ukraynadan dronlar oğurlayıb...

## Brovarı şəhərində nazir və müavininin də öldüyü dəhşətli helikopter qəzasının sirri ortaya çıxır...

### Hovakim Arutyunyan: "Ukraynada yaşayan ermənilər faktiki olaraq Ukrayna Silahlı Qüvvələrinin ən zəruri silahlanma vasitələrindən birini müharibə edən ölkədən oğurlayırlar ki, sonradan onlarla döyüşə bilsinlər..."



"Ukrayna ordusuna çox lazım olan pilotsuz təyyarələr Azərbaycanla müharibə üçün erməni diasporunun nümayəndələri tərəfindən ölkədən çıxarılır. Elə bir vaxtda ki, Azərbaycan Ukraynanı enerji resursları, modul evləri, generatorları, ərzaqları və dərmanları ilə təmənnasız dəstəkləyir, Ukrayna azərbaycanlıları isə Ukraynanın azadlığı üçün canlarını verirlər".

Bu barədə kavkazplus.com saytında dərc olunan məqalədə bildirilir.

Müəllif Qriqol Qiorqadze yazır ki, bu məsələ ortaya çıxanda nəzəri olaraq qalmaqal baş verməli idi, amma nədənsə hətta Ukrayna mediası da müharibə aparan ölkədən qeyri-qanuni silah tədarükü faktlarına susur:

"Ukrayna Erməniləri İttifaqının icraçı direktoru Hovakim Arutyunyan bəyan edib ki, Ukraynada yaşayan ermənilər faktiki olaraq Ukrayna Silahlı Qüvvələrinin ən zəruri silahlanma vasitələrindən birini müharibə edən ölkədən oğurlayırlar ki, sonradan onlarla döyüşə bilsinlər. Ukrayna Erməniləri İttifaqının icraçı direktoru Hovakim Arutyunyan heç bir tərəddüd etmədən azərbaycanlıların bu silahlara sahib olduqlarını bildirib:

"Hazırda vətənimizə kömək etməyə davam etməliyik. Düzünü desəm, biz artıq Ermənistana kəşfiyyat aparatları göndərmişik. Varşava-İrəvan reysi ilə. Buradan, Ukraynadan ordumuza çoxlu kömək göndərilir. Təsəvvür edin, bizdə müharibə var, amma bizim ermənilər buradan Ermənistana kömək edə bilirlər... Üstəlik, burada Ukraynanın tərəfində vuruşan hərbçilərimiz Ermənistandakı qardaşlarına pilotsuz uçan aparatlar da göndərə bilirlər".

Ötən həftə Ukraynanın Rəqəmsal Transformasiya naziri Mixail Fedorov bildirib ki, onun ölkəsi yeddi ay ərzində 1600-ə yaxın dron alışı üçün dəyəri 81 milyon dollardan çox olan müqavilələr imzalayıb. Bununla yanaşı, sadə ukraynalılar xaricdən dron almaq üçün mütəmadi olaraq pul yığırlar. Erməni diasporunun nümayəndələri isə, əksinə, Ukraynadan dronları çıxarır, bununla da rus qoşunlarına kömək edirlər... Və onlar bu faktı nəinki gizlətmir, hətta bununla lovğalanırlar.

Qəribəlik bununla bitmir. Bu yaxınlarda, 2022-ci il yanvarın 18-də Kiyevətrafı qəsəbələrdə - Brovarı şəhərində fəlakət baş verdi. Belə ki, Ukrayna Daxili İşlər Nazirliyinin bütün rəhbərliyinin eyni vaxtda göyərtəsində olduğu helikopter qəzaya uğradı. Ukraynanın daxili işlər naziri Denis Monastırski, Daxili İşlər Nazirliyi rəhbərinin birinci müavini Yevgeni Enin, Daxili İşlər Nazirliyinin katibi Yuri Lubkoviç həlak oldular. Helikopterdə olan Daxili İşlər Nazirliyinin Patronaj Xidmətinin rəis müavini Tatyana Şutyak və nazirin mühafizəsinin rəisi (Daxili İşlər Nazirliyinin rəhbərliyinin təhlükəsizliyinə cavabdehdir) Mixail Pavluşko






da həlak oldu.

Müharibə şəraitində olan ölkədə Daxili İşlər Nazirliyinin, yəni əsas hüquq-mühafizə orqanının 3 yüksək vəzifəli məmurunun bir helikopterdə hərəkət etməsi prinsipcə qəbuledilməzdir. Ancaq bəzi nüfuzlu qüvvələr elə şərait yaratdılar ki, onlar bu helikopterə "yığıldılar". Hansı ki, burada təkcə Ukrayna Daxili İşlər Nazirliyinin rəhbəri deyil, onun ölümü halında idarəyə rəhbərlik edə biləcək iki nəfər də vardı.

Monastırskinin ölümündən sonra Ukrayna Daxili İşlər Nazirliyinə əslində kimin rəhbərlik edəcəyi də çox maraqlı idi. Hansı ki, Ukrayna Nazirlər Kabineti dərhal Milli Polisin rəhbəri İqor Klimenkonu daxili işlər nazirinin müavini təyin etdi və daxili işlər nazirinin vəzifələrini ona həvalə etdi.

İqor Klimenko Ukrayna Daxili İşlər Nazirliyinin rəhbərliyində təmsil olunan yeganə şəxsdir ki, 2021-ci ildə - müharibənin başlamasına az qalmış Denis Monastırski etnik erməni olan keçmiş nazir Arsen Avakovu əvəz etdikdən sonra vəzifəsində qalıb. İqor Klimenko 2019-cu ildə Ukrayna Milli Polisinin rəhbəri təyin edilməsində Avakova borcludur.

Brovarıdakı helikopter qəzasından dərhal sonra separatçı "DXR"-in resursları Monastırskinin ölümünün onun müharibə aparan Ukraynadan silah alverinin "kölgə sxemləri" ilə məşğul olmağa başlaması ilə əlaqədar olduğu barədə məlumat yaymağa başladı. O cümlədən, ölkəyə Qərbin hərbi yardımının bir hissəsi kimi daxil olan silahlardan söhbət getdiyi açıqlandı.

Beləliklə, "Joker DNR" Teleqram kanalı ""DXR"-in "informasiya naziri" Daniil Bezsonova istinadən bildirib ki, Denis Monastırski yardım şəklində gələn Qərb silahlarının qanunsuz ticarətinin olduğunu bilirdi. Düzdür, separatçı "nazir" nəinki erməni lobbisinin bu cür qanunsuz silah alverində iştirakını qeyd etməyib, əksinə, dərhal Ukrayna Müdafiə Nazirliyinin rəhbərliyinə "oxları yönləndirərək" öz versiyasını irəli sürməyə cəhd edib.

Eyni zamanda, Bezsonov separatçı kimi (bütün separatçılara Rusiya erməni lobbisi nəzarət edir) çox gözəl başa düşür ki, Monastırskinin ölümündə sələfi Avakovun əli olduğunu dolayısı ilə qeyd etmək belə mümkün deyil. Ancaq o, əsas şeyi dilə gətirir - Monastırskinin ölümünün qaranlıq və qeyri-qanuni silah ticarəti sxemləri ilə əlaqəli olduğu iddia edilir.

Ukrayna Daxili İşlər Nazirliyinin keçmiş rəhbəri Arsen Avakovun sələfi Denis Monastırskinin ölümündə əli olması ilə bağlı versiya digər rusiyalı təbliğatçılar, xüsusən də Aleksandr Semçenko tərəfindən də səsləndirilib. Onun fikrincə, Daxili İşlər Nazirliyi rəhbərliyinin vertolyot qəzasında ölməsi ilə bağlı əsas versiya odur ki, bu qətlin sifarişçisi hakimiyyətə can atan Avakovdur.

Doğrudan da, Ukrayna Daxili İşlər Nazirliyinin rəhbərliyinin öldüyü bu hadisəni "qəza" adlandırmaq çətindir. Üstəlik, "Avakovun adamı"nın birdən-birə Daxili İşlər Nazirliyinə rəhbər təyin olunması da kifayət qədər düşündürücüdür. O Avakov ki, onun çoxdankı dostu, Ukrayna Erməniləri İttifaqının icraçı direktoru Hovakim Arutyunyan "ermənilər Ukraynadan Ermənistana qanunsuz silah verirlər", - deyə açıq şəkildə lovğalanır.

Ola bilsin ki, mərhum Monastırski və Yevgeni Yesin Ukrayna Erməniləri İttifaqının rəhbəri Arutyunyan kimi insanların fəaliyyəti ilə maraqlanıblar. Bu da onlara həyatları bahasına başa gəldi.

Brovaridə qəzaya uğrayan Fransanın "Airbus" şirkətinin istehsalı olan H225 "Super Puma" helikopterinə gəlincə, o da məlumdur ki, Ukrayna onu 2018-ci ildə - Arsen Avakov Daxili İşlər Nazirliyinin rəhbəri olarkən sifariş edib. Eyni zamanda, bu helikopterin və digər fransız texnikasının alınmasına da həmin Arsen Avakov səylə lobbiçilik edib. Fransa xüsusi xidmət orqanlarının erməni lobbisi ilə münasibətlərini nəzərə alsaq, bu heç də təəccüblü deyil. O da məlumdur ki, bu cür texnikaları sifariş verənlər və ya satın alanlar istədikləri vaxt onun "bloklaya" və yararsız hala sala biləcək informasiyalara da malikdir...".

**Hazırladı: KƏNAN**

Hürriyyət

# Hüquq

SİZİN ÜÇÜN QƏZET

№03 (3246) 24 Yanvar / 2023-cü il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# “Şlyapa Zahid” haqda şok faktlar açıqlandı

## Nəcməddin Sadıkovun yaxın adamı hərbçiləri evində fəhlə kimi işlədib

**Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik, həmçinin Təhsil-tədris və Elmi tədqiqatlar idarəsinin sabiq baş zabiti Zahid Niftəliyevin cinayət işi ilə bağlı məhkəmə araşdırması başlayır.**

APA Zahid Niftəliyevin cinayət işi ilə bağlı bəzi məlumatlar əldə edib.

İttihama görə, Zahid Niftəliyev N saylı hərbi hissədə gizir kimi xidmət edən Elsevər Niftəliyevlə əlbir olaraq ayrı-ayrı hərbi qulluqçuların xidmət yerinin dəyişdirilməsi və ya ordu sıralarından ehtiyata buraxılmasını təşkil və təmin etməyə görə onlardan müxtəlif məbləğlərdə rüşvət alıb.

Zahid Niftəliyev görəcəyi işlərdə onlara Müdafiə Nazirliyinin sabiq baş qərargah rəisi Nəcməddin Sadıkovun köməklik edəcəyini deyib.

Qeyd olunub ki, onunla Nəcməddin Sadıkov arasında dostluq münasibətləri 1-ci Qarabağ müharibəsi zamanı yaranıb. Onlar birlikdə xidmət edib, sonralar isə yaxın dost olublar. Nəcməddin Sadıkov Baş qərargah rəisi olduqdan sonra Zahid Niftəliyevi nazirliyin bütün rəhbər işçilərinə yaxın dostu kimi təqdim ediyi, Zahid Niftəliyevin sözünün onun sözü olduğunu elan etdiyi bildirilir.

Zahid Niftəliyev bir neçə hərbçidən ümumilikdə 40 min manat rüşvət almaqda ittiham olunur.

Bundan başqa, Zahid Niftəliyev 2018-ci ildə N saylı hərbi hissənin beş nəfər hərbi qulluqçusunu qanunsuz olaraq Qəbələ rayonu, Vəndam qəsəbəsində yerləşən evində fəhlə kimi işlədib.

Hərbi qulluqçular 15 gün ərzində hər gün səhər saat 08.00-dan axşam saat 20.00 kimi, heç bir ödəniş almadan fərdi yaşayış evinin qarşısındakı həyətyanı sahənin betonlanmasını və mozaika daşları ilə döşənməsini həyata keçiriblər.





Qeyd olunan əməllərə görə, Zahid Niftəliyevə qarşı Cinayət Məcəlləsinin 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma), 311.3.2 (təkrar rüşvət alma) və 311.3.3-cü (külli miqdarda rüşvət alma) və 341.1 ( rəisin və ya vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etmə) maddələri ilə ittiham irəli sürülüb.

Hərbi Məhkəmənin qərarı ilə Zahid Niftəliyev barəsində həbs qətimkan tədbiri seçilib.

Zahid Niftəliyev verilmiş ittihamlarla özünü təqsirli bilməyib.

Cinayət işi araşdırılması üçün Tərtər Hərbi Məhkəməsinə göndərilib.

Qeyd edək ki, Zahid Niftəliyev Müdafiə nazirliyinin sabiq baş qərargah rəisi Nəcməddin Sadıkovun yaxın adamı hesab olunur. O, “Şlyapa Zahid” kimi tanınır.

Onu da qeyd edək ki, Elsevər Niftəliyev Tərtər Hərbi Məhkəməsində Zahid Niftəliyevlə birgə mühakimə olunacaq.

Xatırladaq ki, Elsevər Niftəliyev 2019-cu ildə dələduzluq və rüşvət verməyə təhrik etməyə görə cinayət məsuliyyətinə cəlb olunub. Bakı Hərbi Məhkəməsinin hökmü ilə ona 2 min manat cərimə cəzasına məhkum edilib.

**Hazırladı: KƏNAN**

# Səlim Müslümovun məhkəməsi təxirə salınıb

**Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət işi üzrə məhkəmə prosesi təxirə salınıb. Bu barədə qərar Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Faiq Qəniyevin sədrliyi ilə keçirilən iclasda elan olunub.**

Belə ki, təqsirləndirilən şəxsin vəkili Ayxan Rüstəmzadə məhkəmənin təxirə salınmasını istəyib. O, bunu 2 həftəlik ölkə xaricində ezamiyyətdə olacağı ilə əlaqəndirib.

Məhkəmə qısa müşavirədən sonra xahişi qəbul edib.

Növbəti iclası fevralın 6-na təyin olunub.

Qeyd edək ki, S.Müslümov Azərbaycan əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılıb.

Toplanılan materiallar əsasında



başlanılan cinayət işi üzrə S.Müslümovun xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlüklər əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən tamah niyyəti ilə qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurmasına, habelə onun tərəfindən tabeçiliyində işləyən vəzifəli şəxslərdən vasitəçi kimi istifadə etməklə müxtəlif rayonlarda əlillər üçün fərdi yaşayış və internat evlərinin tikinti-təmirinin aparılması işlərini yerinə yetirən fiziki və hüquqi şəxslərə ayrılmış pul vəsaitlərinin bir hissəsinin tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Həmçinin S.Müslümovun nazirliyin Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən ölkə ərazisində istehsal, sosial-məişət və iaşə təyinatlı obyektlərin inşası və yenidən qurulması zamanı əməyin mühafizəsi tələblərinə əməl olunması, onların istismara buraxılmasına razılığın verilməsi, əməyin mühafizəsi tələblərinə uyğunluğu ilə bağlı müəssisələrdə aparılmış yoxlamaların nəticələrinə görə müxtəlif vaxtlarda külli miqdarda pul vəsaitləri qismində təkrar rüşvət almasına dair məlumatlar əldə olunub. Eyni zamanda, Daxili nəzarət şöbəsi tərəfindən ərazi strukturlarında aparılmış yoxlamaların nəticələri ilə bağlı onun həmin nazirliyin müxtəlif ərazi şöbələrinin rəhbərlərinin hər birindən 10 mindən 30 min manatadək külli miqdarda təkrar rüşvət almasına əsaslı şübhələr müəyyən edilib. S.Müslümov Azərbaycan Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Daha sonra səhhətindəki problemlərlə bağlı sabiq nazir ev dustaqlığına buraxılıb.




# “Tərtər işi”nin təkrar istintaq başa çatır...

**2017-ci ildə Tərtərdə bir qrup hərbi qulluqçuya işgəncə verilməsi, onların qanunsuz olaraq azadlıqdan məhrum edilməsi cinayətlərinin təkrar istintaq başa çatır və iş tezliklə məhkəməyə göndəriləcək.**

Hurriyyet.az xəbər verir ki, bu haqda zərəçəkmişlərə Baş Prokurluqdan rəsmi məlumat verilib. Məlumatı “Tərtər işi” ilə bağlı məsələni gündəmdə saxlayan siyasi şərhçi Ərəstun Oruclu ictimailəşdirib. Onun sözlərinə görə, həbs olunmuş şəxslərin heç birinə Cinayət Məcəlləsinin 120.1-ci maddəsi (qəsdən adamöldürmə) üzrə ittiham verilməyib.

“Tərtər işi” zamanı 14 hərbçimizin işgəncələr nəticəsində öldüyünü xatırladan ekspert təqsirləndirilənlərə qəsdən adamöldürmə maddəsi üzrə ittiham verilməməsindən təəssüfləndiyini vurğulayıb.

Xatırladaq ki, 2021-ci ilin dekabr ayında Baş Prokurorluqda ”Tərtər işi” ilə bağlı cinayət işlərinin icraatının təzələnməsi ilə bağlı qərarlar qəbul edilib. Sözügedən qərarlardan sonra aparılın istintaq zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verilməsi, onların qanunsuz azadlıqdan məhrum edilməsi və vəzifə səlahiyyətlərini aşılmasına əsaslı şübhələr müəyyən edilmiş 10 nəfər cinayət məsuliyyətinə cəlb olunub.

Cinayət işinə dair həbs olunanlar arasında iki yüksək rütbəli zabit var - general-mayor Bəkir Orucov və polkovnik Vüsal Ələsgərov. Təqsirləndirilən şəxslər Cinayət Məcəllesinin 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.2 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma), 341.2.3 və 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) və digər maddələri ilə ittiham olunurlar.

# Hərbi Prokurorluğun 7 əməkdaşı məsuliyyətə cəlb olunub

**2022-ci ildə Hərbi Prokurorluğun 7 işçisi intizam məsuliyyətinə cəlb olunub. Bu barədə Hərbi Prokurorluqda keçirilən kollegiya iclasında bildirilib.**



Belə ki, kollegiya iclasında, hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, “Prokurorluq haqqında” Azərbaycanın qanununda nəzərdə tutulan fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, işin effektivliyinin daim artırılması tələb edilib.

Qeyd edilib ki, Hərbi Prokurorluq orqanlarında xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi də diqqət mərkəzində saxlanılıb, bu sahədə aşkar olunan hər hansı nöqsan və pozuntuya qarşı prinsipiallıq mövqeyindən yanaşılmaqla müvafiq tədbirlərin görülməsi təmin edilib.



# Yeni dünya düzəni və "

## Və yaxud ABŞ siyasətinin "patriarxı" hesab olunan Henri Kissincer Ukrayna müharibəsi ilə bağlı fikrini niyə dəyişdi?

Ukrayna-Rusiya müharibəsinin mümkün nəticəsi olaraq Rusiyanın parçalanması diqqət mərkəzindədir və geniş müzakirə edilir. Hərbi əməliyyatlar başlayandan bir az sonra dünya siyasətinin dirijor çubuqlarından birini daşıyan və mühüm şəxslərdən hesab olunan Henri Kissincer sakitliyini pozmuşdu. Hansı ki, onun mövqeyi daha çox Rusiyayönlü adlandırıla bilərdi. Bu günlərdə ABŞ siyasətinin "patriarxı" olan Kissincer yeni açıqlama ifadə etdi ki, Ukraynanın NATO-ya üzv olması hazırkı qarşıdurmanın haqlı nəticəsi olacaq və Ukrayna tezliklə NATO-da olmalıdır. Bu təklif NATO-nun Ukraynanın bundan sonrakı təhlükəsizliyi üçün qarant rolu oynaması deməkdir.

Əgər ABŞ elitası onu dinləməsəydi, həm də "siyasət patriarxı" Rusiyaya qarşı mövqeyini sərtləşdirməsəydi, may ayında 100 yaşı tamam olacaq yaşlı dövlət katibini təbii ki, görməzlikdən gəlmək olardı. Əvvəllər o, qarşıdurmanın "anlaşma üçbucağı"nı pozacağına inanaraq Rusiyaya dialoq təklif edirdi - səbəb odur ki, Rusiya və Çin həmişə bir-birindən daha çox ABŞ-a yaxın olmalıdır.

**Bəs, Kissincer niyə indi ancaq Rusiyanın tam məğlubiyyəti ilə mümkün olan ssenarini ortaya qoyur?**

**1.** ABŞ siyasi elitası (ən azı onun əhəmiyyətli bir hissəsi) Rusiya üzərində hərbi qələbənin mümkün olduğuna inanır. Daha doğrusu, Rusiyanı o dərəcədə yormaq olar ki, o, Ukraynanın NATO-ya daxil olması ilə şərtilə sülh bağlamağa razı olsun.

**2.** Qərb Rusiya enerji daşıyıcıları olmadan keçinməklə ciddi şəkildə məşğul olmağa hazırlaşır. G7 ölkələri Rusiya neftindən tam imtina etmək niyyətindədir. ABŞ "neft müharibəsi"nin köməyi ilə Rusiya iqtisadiyyatını tamamilə çökdürmək ümidi ilə bunun üçün fəal iş aparır. Qışın isti keçməsinə, Norveç qazı və LNG-nin ABŞ və Qətərdən tədarükünə görə, "buzlaşma apokalipsis"i baş tutmadı. Rusiyadan tədarükün azalması adi avropalıların rifahına və hətta daha çox Avropa sənaye istehsalına mənfi təsir göstərdi, lakin tam dağılma olmadı. Rusiyanın enerji daşıyıcıları tədricən başqaları ilə əvəz olunur ki, bu da Qərb ölkələrinin Rusiya ilə tez dialoq qurmağa marağını kəskin şəkildə azaldır. Belə bir şəraitdə ABŞ Ukraynanı NATO-ya daxil etmək ümidi ilə kifayətlənə bilər.

**3.** ABŞ Çinlə münasibətlərin normallaşdırılmasını gözləyir (və Kissincerin nöqteyi-nəzərindən əsas məsələ budur). Görünür, bunlar tamamilə əsassız xəyallar deyil: fevralın 5-6-da ABŞ dövlət katibi Çinə səfər edəcək. E.Blinken Bayden administrasiyasının Çinə səfər edən ilk yüksək vəzifəli rəsmisi olacaq. ABŞ dövlət katibi sonuncu dəfə 2018-ci ildə Donald Tramp prezident olanda Pekinə səfər edib. Təbii ki, bu səfərdən irəliləyişlər gözləmək lazım deyil, amma ABŞ elitasının müəyyən ümidləri var.

Beləliklə, Ukrayna dövlətçiliyinin istənilən formada (hətta Yanukoviç/Medvedçuk başda olmaqla) qorunub saxlanması Ukraynanın NATO-ya zəmanətli daxil olması Rusiya üçün strateji məğlubiyyətdir. Hətta Putinin "Novorossiysk" adlandırdığı Ukrayna vilayətlərinin ilhaqı da bunu kompensasiya etmir. Üstəlik, Ukraynanın NATO-ya daxil olması ehtimalı, görünür, ciddi şəkildə nəzərdən keçirilir. Təəccüblü deyil ki, hətta ehtiyatlı Kissincer də bu barədə danışmağa başladı.

**Burada bir haşiyə çıxaraq qeyd edək ki, Putinlə yaxınlığı məlum olan Medvedçukun yenidən "müstəqil və neytral" Ukraynanın liderliyinə gətirilməsi ehtimalı ortaya atılıb və o, özü bu ehtimalı "İzvestiya" qəzetində yazdığı məqalədə irəli sürdü. Medvedçuk bu layihəni Ukrayna dövlətçiliyinin qorunub-saxlanması məqsədilə irəli sürdüyünü etiraf etsə də, prezident Putinə yaxınlığı təşəbbüsün haradan qaynaqlandığını ortaya qoyur. Görünür, Medvedçuk özünü yeni "neytral Ukraynanın lideri" kimi irəli sürməsinin əvəzində Rusiyanın onu dəstəkləməsini istəyir. Amma iş orasındadır ki, Rusiya rəhbərliyinin ümumiyyətlə Ukraynanı gələcək perspektivdə dövlət kimi görmək fikri yoxdur. Rusiya internet məkanında Ukraynanın parçalanacağına, Polşanın Qərbi Ukrayna torpaqlarına göz dikdiyinə doğru yetərli proqnozları ortaya atan məqalələr var. Yəni Putin və Rusiya siyasi elitası ümumiyyətlə Ukraynanın dövlət kimi mövcud olmasından yox, əksinə, Ukraynanın bir dövlət kimi tarix səhnəsindən silinməsindən yanadır. Hətta Ukrayna rus media resurslarında "rusofob layihə" adlandırılır.**

Bu səbəbdən "Medvedçuklara stavka, cəmiyyətimizin böyük əksəriyyəti tərəfindən milli xəyanət kimi qəbul edilən Rusiyanın məğlubiyyətinə qoyulan stavkadır", - deyə ifadə də dilə gətirilir.

Beləliklə, qayıdaq söhbətin əvvəlinə. Kissincerin əvvəl Ukraynanı NATO-da görməməsinə baxmayaraq indi fikrini dəyişməsinə nə səbəb oldu? Ukrayna niyə birdən Kissincer tərəfindən "qiymətə mindi?"

Üç gün əvvəl prezident Zelenskinin müşaviri Aleksey Arestoviçin Ukrayna internet telekanallarından birində müsahibəsi yayınlandı. Yuri Romanenko ilə Arestoviçin yeni söhbətində Ukraynanın belə, xarici siyasət strategiyasının bir sıra mühüm elementləri nəzərdən keçirilir.

Müsahibə çox maraqlı idi. Bilirik ki, dünya "yeni dünya düzəni"nə hamilədir və bir çox dəyişikliklərin ərəfəsindədir. Bu dəyişiklik koronavirus pandemiyası ilə başlasa da, prosesin gedişatında Ukrayna-Rusiya müharibəsi də baş verdi. Bu müharibənin gedişində isə aclıq fonunda Türkiyənin təşkil etdiyi və yönəltdiyi "taxıl koridoru" meydana çıxdı. Aydındır ki, dünyanı dəyişikliklərlə tranformasiya etməyə planlanmış proseslərin iqtisadi-siyasi tərəfləri olduğu kimi, bu prosesə iqtisadi-tibb-siyasi-hərbi fraqmentlər də təkan verəcək və Ukrayna-Rusiya müharibəsi bu fraqmentlərdən biridir. Başqa sözlə, Rusiya və Ukrayna arasındakı müharibə yeni dünya düzəninin formalaşmasına təkan verir. Əgər dünya miqyasında sərhədlər dəyişirsə, iqtisadi təlatümlər baş verirsə, müharibə sayəsində "xalqlar köçü" törənirsə sadaladığımız faktorlar bölgəsəl yox, qlobal miqyasda dəyişikliyə hesablanıb. Müharibə göstərdi ki, Ukraynanın iri oyunçuların maraqlarına cavab verən xarici strategiyasının yoxluğu az qala ölkəni fəlakətə sürükləyəckdi. Aydındır ki, Ukrayna Qərbə onun maraqlarına Rusiya-Qərb əməkdaşlığının verdiklərindən daha çox vəd etməlidir. Aleksey Arestoviçin çıxışından bəlli oldu ki, Ukraynanın belə bir projesi var. Hətta Arestoviçin açıqladığı bu proje rus mediasında fəal müzakirə olunur. Zelenskinin sabiq müşaviri ifadə edir ki, Kiyev Qərb tərəfdaşlarına Ukraynanın dünya sistemində inkişafına, təhlükəsizliyinə və rifahına zəmanət verən fərqli və başa düşülən funksional imkanlar təklif etməlidir.

Söhbətin birinci hissəsində məqsəd Ukraynanın özünü Rusiyanın informativ-psixoloji xüsusi əməliyyatının hədəfində yer almasından, dövlət institutları arasında daxili qarşıdurma təşkil etməklə dövlətin müqavimətini zəifləməkdən gedir. Rusiya Ukraynanı daxili böhranla çökdürmək üçün təhlükəli arxetiplərindən fəal şəkildə istifadə edir.

Yuri Romanenko ilə Aleksey Arestoviçin söhbətinin ikinci hissəsində Ukrayna üçün yeni qlobal strategiyanın formalaşdırılmasından danışılı. Bu strategiya Ukraynanı anqlosaksların - Böyük Britaniya və ABŞ-ın qlobal oyununun məntiqinə elə bir şəkildə oturtmalıdır ki, Ukrayna Vaşinqton və Londonun ən mühüm regional müttəfiqlərindən birinə çevrilsin.

Bununla bağlı Yuri Romanenko və Aleksey Arestoviç Şərqi Avropa, Mərkəzi Asiya və Qafqazda ABŞ və Böyük Britaniya ilə sıx ittifaqda olan dövlətlər vasitəsilə Avropanı Çinlə birləşdirəcək yeni təhlükəsizlik arxitekturasının formalaşdırılmasını təklif edirlər.

Bu arxitekturanın əsas elementlərindən biri Ukraynanın fəal iştirak edəcəyi regional birliklər sistemi olacaq. Bundan əlavə, Yuri Romanenko və Aleksey Arestoviç Ukrayna sərhədlərinin şərqində bufer zonalarının yaradılmasına töhfə verməyi təklif edirlər ki, sabiq müşavir bu bufer zonanı "Yuqo Rusiya"-Cənubi Rusiya adlandırır. Onun fikrincə, belə bufer zonaları Rusiyanın Ukraynaya qarşı yeni təcavüzünə qarşı ən yaxşı təminat olacaq. Cənubi Rusiya - müasir Rusiyanın bir sıra regionlarını əhatə edən yeni dövlət quruluşu Avropa və Çini etibarlı şəkildə birləşdirəcək, Ukrayna üçün Qafqaza Mərkəzi Asiyaya, Çinə yol açacaq.

Xatırlayırsınızsa, keçən yazımızda ortaya atılan "Yeni Xazariya-Yeni İsrail" haqqında yazmışdıq. Rus mediası Arestoviçin "Cənubi Rusiya" projesinin ABŞ-ın sponsorluğu ilə irəli sürülən Yeni Xazariya projesinin olduğunu iddia edir.

Məlum olduğu kimi, SSRİ-nin dağılmasının ardınca tam çöküşü əngəlləmək üçün Rusiya hakimiyyəti MDB, KTMT, Avrasiya İqtisadi Əməkdaşlıq təşkilatı kimi qurumlarla çöküş prosesini ləngitmək, hansısa şəkildə varlığını sürdürməyə çalışdı. Çinin "Bir Kəmər Bir Yol" layihəsində yer almaq üçün Rusiya Avrasiya İqtisadi Birliyindən istifadə edir və

# "Yuqo Rusiya" projesi...

## Rusiya və Ukrayna arasındakı müharibə yeni dünya düzəninin formalaşmasına təkan verir...



Ukrayna-Rusiya müharibəsi ilə Qərb Moskvanı nəinki sanksiyaların cəngində boğmağa çalışır, üstəlik Rusiyanın öz ərazisindən keçməsinə çalışdığı "Bir Kəmər Bir Yol" layihəsinin alternativ xəttlərindən biri olacaq yollar da təxirə düşdü. Rusiyanın layihəsi - AİƏT-nı tikintisi sürətlə davam edən Böyük İpək Yolunu mahiyyətcə yenidən yaratmaq, azad ticarət rejiminin yaradılması məqsədi ilə gündəmə gəlmişdi. Yeni İpək Yolu Busandan (Cənubi Koreya) bütün Mərkəzi Asiyadan keçərək Britaniyaya qədər uzanacaq. Orta əsrlərdəki əvvəlki "Yeni İpək Yolu" yolunda isə əsas rolu Xəzər xaqanlığı oynamışdı.

Rusiya mediasında ortaya atılan iddialar bu yöndədir ki, hazırda yəhudi-protestantlar Şərqdən Avropaya gedən yolda yenidən sədd yaratmağa çalışırlar.

Burada, göründüyü kimi, mübarizə dünyanın şah damarının arteriyaları rolunu oynayan əsas ticarət yollarını öz ərazilərindən keçirmək, əgər bu alınmırsa da həmin yollara nəzarəti ələ almaq üstündə gedir. Arestoviçin də səsləndirdiyi "Cənubi Rusiya" projesi Ukraynanın qlobal layihədə önəmli yer almaq, bundan iqtisadi-siyasi dividentlər qazanmaq, dünya güclərinin maraqlarına cavab verməklə Kremlin "bitməz-tükənməz iştahına yem olmaq" təhlükəsindən qorunmaq, təhlükəsizliyini qarant altına almaq məqsədi daşıyır ki, bunda da Kiyev haqsız sayılmaz. Amma rus mediasında "Cənubi Rusiya" xoxanlaşdırılmış - özünü "seçilmiş" hesab edən qlobal parazitlərin - yəhudilərin iqtisadi maraqlarına xidmət edən ideologiya kimi təqdim olunur, mövzuya ideoloji rəng verilir, istənilən projenin başda iqtisadi-ticari, ondan da irəli gələn siyasi maraqların üzərində dayanması arxa plana atılır. Guya ki, "adamyeyən", xristian uşaqlarının qanını içən hannibal yəhudilər mövcud İsraili ləğv edib Ukrayna və tarixi Xəzər dövləti ərazilərinə yeni köç planlaşdırırlar. Guya əcnəbi muzdlular və çılğın "ukri"lər (ukraynalılar)- hərbi çevrilişlə - Maydan nəticəsində Kiyevi ələ keçirmiş Xəzər xuntasının rəhbərliyi altında milli mənsubiyyətini itirmiş ruslar və "Sağ sektor" silahlıları burada təlim keçiblər və "Yeni Xəzəriya" yaratmaq üçün öz milli kimliyini itirməmiş rusları Rusiya ərazilərini təmizləməklə məşğuldurlar. Guya Rusiya və "antiyəhudi koalisiyasının" digər ölkələri hələ də bu oyunu pozmağa və müqavimət göstərməyə çalışırlar.

ABŞ İŞİD-ə qarşı mübarizə bəhanəsi ilə "suriyalı" yaraqlıları maliyyələşdirməyə və ölkəni bombalamağa davam edərkən, Suriya guya bundan qorunmaq üçün Rusiyaya Avrasiya İqtisadi Birliyinə qoşulmağı xahiş edib. "Suriyanın vəziyyəti Avropanın enerji təchizatının təmin edilməsində Avrasiya İttifaqının əsas tərəfdaşına çevrilməyə imkan verir" - bu rus mediasında gəzən ifadədir. Halbuki, Suriyanın bu durumda olmasından istifadə edərək Rusiyanın onun neft yataqlarına yiyələndiyi, onun neftini öz malı kimi satdığı, gəliri isə mənimsədiyi, guman ki, işğal-ilhaqlara sərf etdiyi məlumdur. Yoxsa rusların Bəşər Əsədin yanında aşıb-daşan mərhəmət hissindən durmadığı aydındır.

**Hələ oktyabrın 24-də Rusiya Federasiyasının iqtisadi inkişaf nazirinin müavini Aleksey Lixaçev bildirmişdi ki, Suriya Rusiya ilə azad ticarət zonası yaratmaq təklifini təqdim edib. Bundan əlavə, Suriya bir milyard dollar məbləğində kredit alacaq. Əlbəttə, Rusiyanı buna motivasiya edən Suriyada satdığı neftdir. Və Rusiya da bütün digər dövlətlər kimi iqtisadi-ticari maraqlarından çıxış edir, amma bunu siyasi-ideoloji devizlərlə pərdələyir. Rusların fikrincə, onlara hər şey olar, başqalarına isə olmaz. Səbəb-hər şeyə tək sahiblənmək hissi, tamah, imperialist ambisiyalardır.**






"Suriya Avrasiya İqtisadi Birliyinə daxil olan beşinci ölkə olacaq. Çox keçməyəcək ki, İran və Mərkəzi və Şərqi Asiyanın digər ölkələri Suriyadan nümunə götürərək, dolların hökmranlığına və Qərbə ciddi təhlükə yaradacaq güclü həmkarlar ittifaqı yaratmağa çalışacaqlar. Tərəflər əvvəllər azad ticarət zonasının yaradılması ilə bağlı danışıqları müzakirə ediblər, lakin silahlı təcavüzün başlanması sazişin bağlanmasına mane olub. Bu gün artıq saziş hazırlanıb və müharibə bitən kimi onun icrasına başlanacaq. Ukrayna, Suriya və İraqda davam edən müharibə Rusiya ilə qlobal parazitlər arasında qlobal iqtisadi proksi müharibənin getdiyinin ən bariz sübutudur. Bu müharibədə təkcə Rusiya və Yaxın Şərq neftinə deyil, həm də Yeni Böyük İpək Yolu və gələcəyin dünyasına kimin nəzarət edəcəyi qərarlaşdırılır", - deyə rus mediasında "ayaq tutub yeriyən yalanlar" daxili publikaya təlqin olunur və ticari-iqtisadi hədəflər ideoloji müstəvidə təqdim olunur.

Məsələyə başqa tərəfdən də baxa bilərik. Rusiyanın dağılma ehtimalından daxildəki milli respublikaların da azad olma ümidləri cücərməyə başlayıb. Arestoviçin təqdimatını etdiyi hələ rus imperiyası dönəmində Don, Kuban, Krım, Podneprovskaya, Sloboda və Cənubi Ukrayna, Çernozem bölgəsi, Aşağı Volqa bölgəsi, Şimali Qafqazı əhatə edən "Cənubi Rusiya" projesi həm hazırkı Rusiyanın birdəfəlik şovinist ambisiyalardan məhrum edilməsi, həm əhatə etdiyi bölgələrin inkişafı, həç qonşu ölkələrin təhlükəsizliyi baxımından ümidvericidir. Bu baş tutarsa Rusiyanın qalan hissələrinin parçalanmasına ehtiyac belə qalmayacaq. Çünki "gözü qırılan" rus şovinizmi zəhərli gücünü itirəcək. Ərazi baxımından Cənubi Rusiyanı itirsə belə, tam parçalanmasa da, transformasiya özözünə qarşısıalınmaz proses kimi domino daşı effektiylə gələcək. Ukrayna isə ABŞ və Qərbin dəstəyi ilə Rusiyanın qarşısında ayaqda qala bilsə, yeni logistik layihələrdə yer alacaq, itirdiyi əraziləri qaytara bilsə Avropanın böyük və güclü dövlətlərindən biri olacaq. Hətta gələcək Avropanın aparıcı iki dövlətindən biri olacaq.

Digər güclü dövlət perspektivi olan dövlət isə Polşadır ki, Ukrayna ilə Polşanı gələcəyin Avropasının iki güclü dövlətinə çevirmək Böyük Britaniyanın strategiyasında mühüm rola malikdir. Amma bunu da qeyd etməliyik ki, Rusiyanın caynaqlarından qurtulması və Qərbin yeni dayaq məntəqəsinə çevrilməsi variantında Türkiyənin yeni güclü-böyük qonşusu Ukrayna olacaq. Bəlkə də Türkiyə qərbin yeni daha bir dayaq məntəqəsinin tam böyründə olmasını istəmir, bu səbəbdən Rusiya ilə Ukrayna arasında sanki balans yaratmağa çalışır.

Yeri gəlmişkən, Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin bildirib ki, ukraynalılar Qərbin verdiyi silah və sursatları atom elektrik stansiyalarının ərazisinə yerləşdirirlər. Narışkin Qərbin Ukraynadakı bir sıra atom elektrik stansiyalarının ərazisinə verdiyi silah və sursatların yerləşdirilməsinə dəlalət edən etibarlı məlumatlardan danışıb. Onların arasında Amerikanın HIMARS reaktiv yaylım atəş sistemləri, hava hücumundan müdafiə sistemləri, eləcə də iri çaplı artilleriya üçün raketlər var.

Narışkinin dediyinə görə, təkcə dekabrın son yeddi günündə dəmir yolu ilə Rafalovka stansiyası vasitəsilə Rovnensk AES-ə xaricdən bir neçə vaqon təhlükəli yük gətirilib. Narışkinin sözlərinə görə, Kiyev Rusiyanın nüvə fəlakəti qorxusuna görə atom elektrik stansiyalarını vurmayacağını gözləyir.

"Ümid etmək istərdim ki, Kiyevdə heç kim ABŞ və onun müttəfiqlərindən daha çox silah və sursat üçün yalvarmaq ümidi ilə bu cür anbarları qəsdən partlatmağı ağlına belə gətirməz", - deyə Xidmətin direktoru əlavə edib. Ukraynanın Kiyevin nəzarəti altındakı qismində-Rivne, Xmelnitski və Cənubi Ukraynada hazırda üç atom elektrik stansiyası var.

Beləliklə, yəqin ki, dünya Rusiya-Ukrayna müharibəsinin sonuna yaxınlaşır. "Patriarx" Kissincerin də Ukraynaya "stavka etmək" və fikrini dəyişmək qərarında yəqin "Cənubi Rusiya" projesi maraq oyatmış ola bilər.

**Ülviyyə ŞÜKÜROVA**

# "Mənə dedi ki, get hara istəyirsən şikayət et"

## Bakı sakini YPX inspektoru Şükür İsgəndərovdan şikayətçidir




**Bakı şəhəri, Keşlə qəsəbəsi, Nizami Abdullayev küçəsi, ev 4/50 ünvanında yaşayan Alışov Telman Camal oğlu rərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin DİN-nin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalova ünvanladığı müraciəti olduğu kimi dərc edirik:**

"Yazıb sizə bildirirəm ki, 2008-ci ildən Almaniya Federativ Respublikasından aldığım "Volvo" FH 12 380 markalı, 99-OA-411 dövlət qeydiyat nişanlı yük avtomobilini idarə edirəm. Həmin müddətdən etibarən avtomobili hər il texniki baxışdan keçirmişəm. Bu müddətdə mənə avtomobilimin üzərində olan işıq faralarına görə irad bildirilməmişdir.

31.12.2022-ci il tarixdə Sumqayıt şəhərindən Bakı şəhəri istiqamətində hərəkətdə olan zaman Saray qəsəbəsində yerləşən DYP postunda xidmət aparan YPX inspektoru avtomibilimi saxladı. O, avtomobilimə sistemdə həbs verildiyi, 16 manat 20 qəpik inzibati cərimənin olması haqda xəbərdarlıq etdi və cərimənin ödəməyimi tələb etdi. Mən cərmə məbləğini yerində ödəyib, qəbzi aldım. 03 yanvar 2023-cü ildə, saat 16:50 radələrində idarə etdiyim "Volvo" markalı yük avtomobili ilə Sumqayıt şəhərindən Bakı şəhəri istiqamətində hərəkətdə olan zaman Saray DYP postunda xidmət aparan YPX inspektoru İsgəndərov Şükür Telman oğlu mənə saxlama işarəsi verdiyi üçün maşını saxladım. Şükür İsgəndərov avtomobildə əlavə avadanlıq quraşdırıldığını bildirib, mənə 150 manat inzibati cərimə yazacağını dedi. Mən isə ona bildirdim ki, 2008-ci ildən həmin avtomobili Almaniyadan necə almışamsa, o vəziyyətdə idarə edirəm, texniki baxışdan keçərkən mənə avtomobilin üzərində olan əlavə işıqlara görə irad bildirilməmişdir.

Mən YPX inspektorunun xəbərdarlıq etməsindən sonra həmin faraları açıb götürdüm. Ona mənə inzibati cərimə yazmamasını bildirdim. Şükür İsgəndərov isə mənə dedi ki, 50 manat ver, protokol tərtib etməyim. Mən ona etiraz etdiyim üçün, protokol tərtib etmədən mənim barəmdə 03.01.2023-cü il tarixli TP 5481537 saylı qərarla İnzibati xətalar məcəlləsinin 342.5, 342.2 maddələri ilə 150 manat cərimə yazdı.

Əslində mən avtomobilin üzərində olan işıq faralarını açıb götürmüşdüm. Bu səbəbdən, mənə xəbərdarlıq verilməli idi. Şükür İsgəndərov məndən rüşvət tələb etdiyi, lakin ona pul vermədiyim üçün mənim barəmdə qərəzli olaraq cərimə yazmışdır. Onun barəsində şikayət edəcəyimi bildirdikdə, mənə dediki, "mənə hədə-qorxu gəlmə, hara istəyirsən get şikayət et".

Sizdən xahiş edirəm, göstərilənləri nəzərə alaraq YPX inspektoru Şükür İsgəndərov barəsində qanuni tədbir görəsiniz və cərimə olunmağımla bağlı yazılmış 03.01.2023-cü il tarixli, TP 5481537 saylı inzibati tenbeh verme haqqında qərarı ləğv edəsiz".

Mövzu ilə əlaqədar DİN Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyevlə əlaqə saxladıq. Elşad Hacıyev mövzunun araşdırılacağını qeyd etdi.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.***

# Şahbuz sakini Baş Polis İdarəsindən şikayətçidir

## "Oğlum həm bıçaqlanıb, həm də polislər tərəfindən işgəncələrə məruz qalıb"




**Naxçıvan şəhəri, Şahbuz rayon sakini Quliyev Vüsal Şamil oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, adını bilmədikləri hərbçi onun oğlunu bıçaqla yaralayıb. "Yaralanan da, zərərçəkən də mənim oğlum və mən oldum", - deyən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mən, Quliyev Vüsal Şamil oğlu, yazaraq sizə bildirirəm ki, oğlum həm bıçaqlanıb, həm də polislər tərəfindən işgəncələrə məruz qalıb. Bu hadisə 3 il qabaq olub. Yaraları ağır olduğu üçün Şahbuz xəstəxanasında əməliyyat etdilər. Yarası tam bitişməmiş xəstəxanadan evə buraxılan zaman polislər gəlib onu polis bölməsinə apardılar. 3 gün beton "podva"la salıb, yaralı vəziyyətdə orada işgəncə veriblər.

Naxçıvan şəhər Baş Polis İdarəsində işləyən Zahir adlı şəxs mənə dedi ki, pul ver, bu məsələni olmamış sayaq. Ona dedim ki, bıçaqlanan da, sizlər tərəfindən döyülən də mənim oğlumdur, bu necə olur?

480 manat pul tapıb gətirib həmin şəxsə verdim, oğlumu çıxartdım. O gündən oğlum özünə gələ bilməyib, səhhəti yerində deyil, yaxşı yeriyə bilmir. Həmin hadisədən sonra 2 dəfə Bakı şəhərində də əməliyyat olunub. Həkimlər hələ də onu əvvəlki halına qaytara bilmirlər. Sizlərdən xahiş edirəm işıqlandırın, günahkarlar cəzalarını çəksinlər".

**Jalə FAMİLQIZI**

# Kürdəmir sakini yenicə tikdiyi evin qəsdən yandırıldığını iddia edir

**Kürdəmir rayonu, Qaramahmudlu kənd sakini Qarayev Şamil Adil oğlu tərəfindən "Hürriyyət" qazetinin redaskiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə müraciət edən şikayətçi bildirir ki, qardaşı ilə birgə yaşadığını qəsdən od vurulub, lakin cinayətkar axtarılmır:**

**"Cənab Prezident!**

Yazaraq sizə bildirirəm ki, mən, Qarayev Şamil Adil oğlu, 2010- cu ildən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində gizir vəzifəsində çalışıram. 2016-cı ildə aprel döyüşlərində, 44 günlük Vətən Müharibəsində Xocavənd, Fizuli istiqamətində gedən döyüşlərdə iştirak edərək, dövlətimizin bir sıra medalları ilə təltif olunmuşam.




Hərbçi Şamil Qarayev deyir ki, hadisəni törədən şəxsin kimliyi barədə polisə məlumat versə də, cinayət faktı ilə bağlı heç bir araşdırma aparılmır

2014-cü ildə ailə həyatı qurmuşam, 4 övlad sahibiyəm. Mənim qardaşım da bir hərbçi olaraq Müdafiə Nazirliyində şərəflə xidmət edir. Biz iki qardaş kəndimizin münasib bir sahəsində qazandığımız məvacibdən özümüzə ikimərtəbəli ev tikdirmiş və yaxın zamanda ailəmizlə həmin evə köçməyi qərarlaşdırmışdıq. Lakin 2021-ci ilin dekabr ayının 7-də, səhər saat 6-da yaşayış olmayan evimizdə yanğın baş verib. Həmin yanğın hadisəsinin qarşısı tezliklə alınsa da, evimizin az bir hissəsi yanğından zərər görmüşdür.

Mən və qardaşım bunu adi hadisə kimi dəyərləndirib, evin yanan hissəsini təmir etdirdik.

2021-ci ilin dekabrın 11-dən 12-nə keçən gecə, saat 03:20 radələrində qonşu bizə zəng edərək, evin yanıb külə döndüyünü bildirdi. Biz hadisə yerinə gələndə artıq gec idi, ikimərtəbəli ev yanaraq külə dönmüşdü. Mən dərhal DİN-in 102 xidmətinə müraciət etdim. Fövqəladə Hallar Nazirliyi və Ədliyyə Nazirliyinin ekspertləri hadisə yerinə baxış keçirdi. Baxış keçirilən zaman bu hadisənin qəsdən, yanğının benzinlə törədildiyi bildirildi. Sonradan ekspertin götürdüyü nümunələrin labaratorr müayinəsi zamanı da hadisənin bilərəkdən, qəsdən törədilməsi faktı tam təsdiqini tapdı.

Bu hadisənin ibtidai istintaqını Kürdəmir Polis Şöbəsinin Təhqiqat şöbəsi, eləcə də Əməliyyat və İstintaq şöbəsi araşdırmağa başladı. Bu cinayət hadisəsinin ilkin araşdırmasını müstəntiq Fuad Babayev, sonra istintaq şöbəsinin müstəntiqi Əlvan Məmmədov aparır. Bu cinayət tərkibli yanğın hadisəsinin araşdırılmasına rəhbərliyi Kürdəmir Polis Şöbəsi rəisinin birinci müavini Anar Əliyev, Tədqiqat Şöbəsinin rəisi İlkin Kərimov edir. Çox təəssüflər olsun ki, qəsdən törədilmiş cinayəti "öz şəxsi" maraqlarına qurban verən Anar Əliyev və ilkin Kərimov kimi polis əməkdaşları gənc hərbçi ailəsinə arxadan süngü vurmaqla, yəni cinayətkarı və cinayəti örtbasdır etməklə bilavasitə Kürdəmir Polis Şöbəsinin fəaliyyətinə kölgə salaraq, məmur özbaşınalığı etmişlər.

Bu hadisənin stressindən dörd azyaşlı övladım, anası gənc qadın xəstəliyə düçar oldu. Yaşlı anam hadisənin şokundan ürəkdamar xəstəliyi tapdı. Ailəmiz külli miqdarda maddi və mənəvi ziyan çəkdi. Həyat yoldaşım Mərkəzi Klinikada ağır beyin əməliyyatı keçirdi. Kürdəmir Rayon Polis Şöbəsi rəhbərliyinin bu qəsdən törədilmiş yanğın hadisəsini obyektiv araşdırmayaraq, cinayəti bilərəkdən ört-basdır etməsi, külli miqdarda maddi və mənəvi ziyan çəkmiş hərbçi ailəsinin hüquq və azadlıqlarına zərbə vurmaqla "böyük rüşvət" hesabına bu cinayət hadisəsini bizlərdən gizli saxlamaqla, araşdırmanı dayandırmışlar.

Kürdəmir polisi bizim bu məsələ ilə bağlı müraciətlərimizə rədd cavabı vermişdir. Həmçinin, mənim bu cinayət tərkibli yanğın hadisəsinin araşdırılması haqqında Baş Prokurorluğa və Daxili İşlər Nazirliyinə müraciətlərim də, təəssüf ki, cavabsız qalıb. Bir ildən artıqdır ki, bu hadisənin şəffaf, obyektiv araşdırılmasını tələb etsəm də, mənim müraciətlərimə baxılmır.

**Cənab Prezident!**

Mənim evimin qəsdən yandırılmasından əsas şübhəli şəxs bizimlə əvvəldən münaqişəsi olan həmkəndlimiz Səməndər Abdullayevdir. Bu şəxsin kəndimizdə baş verən bir sıra oğurluqlarda və digər yanğın hadisələrində də şübhəli şəxs kimi adı hallandığı halda, Kürdəmir Polis Şöbəsi onun haqqında heç bir dindirmə və araşdırma aparmır. Səməndər Abdullayev bu oğurluqların və yanğın hadisələrinin "sifarişçi" kimi kənddə "at oynadır". Bu şəxs qeyri-rəsmi olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq Xidmətinin "dəllalı" rolu oynayır. O, vətəndaşların haqqına girərək onların vəsaitlərini qeyri-rəsmi yolla mənimsəməklə çirkli pullar qazanır.

Biz Səməndər Abdullayevin bu qeyri-qanuni yollarla qazandığı pullar barədə və "sifarişçi" kimi kənddə törətdiyi yanğın hadisələrinin bir sıra dəlil-sübutlarını Kürdəmir Polis Şöbəsinin rəis müavini Anar Əliyev və İlkin Kərimovun diqqətinə çatdırsaq da, bizim müraciətlərimiz cavasız qalıb.

**Cənab Prezident!**

Siz Ali Baş Komandansınız. Mən bir hərbçi kimi hər zaman Sizin əmrinizdəyəm. Sizin gərgin işinizi mən bir hərbçi kimi daha çox başa düşürəm. Dövlət başçısının vətəndaşlarına qarşı isti, səmimi münasibəti, qayğısı göz qabağındadır. Lakin çox əfsuslar olsun ki, dövlətimizdə məmur özbaşınalığı, bürokratik əngəllər, hüquq-mühafizə orqanlarında vəzifələrindən sui-istifadə edən şəxslər mövcuddur ki, belə hallar dövlətimizin işinə böyük xələl gətirir. Belə neqativ halların aradan qaldırılmasında ictimai nəzarətə böyük ehtiyac var.

**Cənab Prezident!**

Mən öz adımdan, bir hərbçi ailəsi adından zərərçəkmiş kimi qəsdən törədilmiş yanğın hadisəsinin obyektiv araşdırılması və Kürdəmir Polis Şöbəsində baş verən neqativ halların aradan qaldırılması üçün hüquq mühafizə orqanlarına ciddi göstəriş verməniz xahiş edirəm. Bizim ailəmiz əmindir ki, hörmətli Prezidentimiz və rəhbərlərimiz hüquqlarımızın bərpa olunması üçün əlindən gələn köməkliyi edəcək və bu müraciəti diqqətdə saxlayacaqdır".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.***



"Murad Cabbarov Şamı Abdullayevə, Şamı Abdullayev isə Vasif Talıbova arxalanıb bu qədər pulu mənim boynumda qoydular..."

# "Başqa yolum qalmır, ya ölməliyəm, ya da..."

## Naxçıvan FHN-nin sabiq əməkdaşı rəhbərlik haqda şok faktları açıqladı

Naxçıvan şəhər, Xok kənd sakini Səfərov Rəcəb Qoşnalı oğlu tərəfindən "Hürriyyət" qazetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, onu Naxçıvan MR Fövqəladə Hallar Nazirliyindən haqsız yerə işdən çıxarıblar:

"Mən, Səfərov Rəcəb Qoşnalı oğlu, Fövqəladə Hallar Nazirliyinin tabeliyində olan bir neçə vəzifəli şəxslər tərəfindən oyuna salınmışam. Murad Cabbarov adlı şəxslə ailəvi münasibətlərimiz olduğuna, ən çox da məcbur edildiyimə görə "Fövqəladə Hallar"da işlə təmin olunmaq istəyən şəxslərdən 10-15 min manat pul alıb Murad Cabbarova verirdim. O deyirdi ki, sənə də "hörmət" edəcəyəm.

Hər dəfə pul verib işə düzəlmək istəyənlərin əksəriyyəti problemsiz işlə təmin olunmuşlar. Axırıncı dəfə isə əksinə oldu, işə düzəltmək adı ilə 10 nəfərdən işlə təmin edə və onlardan aldığım pulları geri qaytara bilmədim. Beləliklə, pul verən şəxslər məni tanıdıqlarına görə, hamısı mənim üstümə gəlir, pullarını istəyirdilər. Dəfələrlə bu haqda Murad Cabbarova məlumat verdim. Amma o, heç nə etmirdi, pulları qaytarmaq fikri yox idi.

10 nəfərdən 5-i işlə təmin olundu, qalan 5-isə yox.

Murad Cabbarovun soyuqqanlı davranışı məni qorxuya salırdı. 2022-ci ilin oktyabr ayında qərar verdim və Şamı Abdullayevin qəbuluna getdim. Şamı Abdullayev mənə dedi ki, heç yerə gedib şikayət eləmə, sakit ol, həll edərik. Bu zaman mənə aydın oldu ki, Murad Cabbarov məhz Şamı Abdullayevlə iş görürmüş.

Gözləməkdən fayda gəlmirdi, şikayətçilər pullarını istəyir, məni şikayət edəcəklərini deyirdilər. Amma onlardan qabaq mən özüm gedib nazirliyə şikayət etmişəm. Daha sonra prokurorluğa müraciət etdim, 6-7 ay istintaq getdi, dəfələrlə eyni izahatı verdim. Və son izahat zamanlar mənə prokurorluqdan bildirdilər ki, sənə 12 il iş düşür, əgər işinin azalmasını istəyirsənsə, bu işi tək törətdiyini boynuna al, işin aşağı salınsın. Dedilər ki, heç kəsin adını çəkmə, tək etdiyini bildir, səni şərti işlə azadlığa buraxaq.

Həmin vaxtı razı olmadım, amma sonradan əlacsız qalıb razılaşdım. Mənə dedilər ki, sənin ailə vəziyyətin də nəzərə alınacaq. Razılaşdım, boynuma aldım. Məhkəmədə hakim 5 il iş deyəndə başa düşdüm ki, məni aldadıblar. Üstəlik, mənə deyilən maddəni də vermədilər.

Beləliklə, 4 il 6 ay həbs cəzası verildi. Ondan sonra yoldaşım hər yerə şikayət etdi. Amma təəssüflər olsun ki, şikayətə baxılmadı. Naxçıvan MR Ali Məclisinə də şikayət etdik. Atadan qalma kənddə bir evim var idi, dövlət onu 20 min manata satdırdı və pulları aldığım insanlara verdi. Bu işdə bir manat gəlirim olmamışdı, amma mən 20 min manat borc qaytardım. İlk mən şikayət etmişəm, amma zərərçəkən də mən olmuşam.

Hələ də 50-55 min manat borcum qalıb. Axı mən "yemədiyim" pulları necə ödəyim?! Üstümdə icbari iş var, heç bir idarə bu səbəbdən məni işlə təmin etmir. Zərərçəkənlər məni hədələyir, şikayət edəcəklərini qeyd edirlər. Bu iş Murad Cabbarov və Şamı Abdullayev tərəfindən mənim boynuma yıxıldı. Qardaşım, yoldaşım lazımi orqanlara müraciət etsələr də, şikayətə baxılmır. Hər kəs deyir ki, prokurorluq bu işə son verib. Mənim başqa yolum qalmır artıq, ya ölməliyəm, ya da həbsə girməliyəm. Pulum yoxdur ki, insanların pullarını qaytarım. Ailəmə baxa bilmirəm, uşaqlarımın qarşısında aciz qalmışam. Murad Cabbarova pul verdiyim otaqda kameralar olub, heç bir görüntünü çıxartmadılar ortaya. Hərbi prokuror qeyd edir ki, kameralarda heç bir görüntü yoxdur. Bəs görüntü yoxdursa, kamera niyə var?!

Bakıda Fövqəladə Hallar Nazirliyinə şikayət etdim. Mənə dedilər ki, bizim Naxçıvana gücümüz çatmır. Fövqəladə Nazirliyinin müavininə belə bir sual verdim ki, əgər siz baş idarəsinizsə, baş bədəni idarə edə bilmirsə, bəs sizin varlığınızın səbəbi nədir?




Rəcəb Səfərov: "Naxçıvanda günahkarı axtarmırlar, günahkarı təyin edirlər"

"3 övladım var, yoldaşım psixi xəstədir, gəlir yerim yoxdur. Onlar deyən kimi, əgər bu pulları mən mənimsəmişəmsə evim, maşınım olardı, heç nəyim yoxdur. Atadan qalma evim var idi , onu da dövlət satdırdı, borca verdi..."

**3 övladım var, yoldaşım psixi xəstədir, gəlir yerim yoxdur. Onlar deyən kimi, əgər bu pulları mən mənimsəmişəmsə evim, maşınım olardı, heç nəyim yoxdur. Atadan qalma evim var idi , onu da dövlət satdırdı, borca verdi.**

Yoldaşım Naxçıvan Respublikası psixoloji dispanserdə qeydiyyatdadır. Oğlum asma braonxit xəstəsidir. Araşdırılma aparılsa bütün həqiqətlər ortaya çıxar. Yaxşı işçi kimi hər zaman fərqlənmişəm.

Naxçıvanda belə bir qanun var: "Günahkarı axtarmırlar, günahkarı təyin edirlər". 6 ay istintaq davam etdi ki, mən o çətinliklərə dözə bilməyim və boynuma alım, belə də oldu. Hərbi prokurorluq da qeyd etdi ki, işimə davam edə bilərəm. Amma komandir məni ora yaxın qoymurdu. Hətta borc alıb əraziyə 800 AZN-ə çən almışdım, onun belə borcu hələ qalır.

Bir sözlə, sübutsuz hər cür şər-böhtana məruz qalmışam. Şamı Abdullayev nazir olan dövrdə tabeçiliyində olan mülki müdafiə alayında iki əsgər özünə qəsd etmişdir. Biri özünü asmış, digəri isə özünü qatarın altına atmışdır. Bu hadisələr haqqında nazir kimi ona heç bir cəza verilmədi, əksinə yüksək rütbə verildi.

Həmişə tədbirlərdə Vasif Talıbov Şamı Abdullayevi nümunə göstərək, "mənim ən sədaqətli nazirim" deyirdi. Vasif Talıbovun arxasında durduğu insana heç kəs heç nə edə bilməzdi. Bu işdə də Murad Cabbarov Şamı Abdullayevə, Şamı Abdullayev isə Vasif Talıbova arxalanıb bu qədər pulu mənim boynumda qoydular.

Şamı Abdullayevin çirkli əməllərindən biri də dövlət tərəfindən ölkə xaricinə (Ukrayna və Belarusiya) təhsil üçün göndərilən işçilərə ayrılan 4 il müddətində 50 min manat məbləği Murad Cabbarovla birlikdə mənimsəməsidir.

Hər il idarələrin təmiri üçün işçilərdən pullar yığılır. Dövlət tərəfindən ayrılan məbləğ mənimsənilir. Mülki Müdafiə alayına ayrılmış dərman vasitələrini almırlar. Qış aylarında istiliyi 4 saatdan artıq yandırmaq qadağan edilir, soyuqda işlərinə davam edirlər.

Sizin redaksiyadan xahişim odur ki, bu məsələni işıqlandırasınız, bəlkə bu məsələyə də aydınlıq gətirələr".

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***

# Ənənəvi və klassik musiqiyə dair

**Qloballaşan və mədəniyyətlərin iç-içə yeridiyi bir dönəmdə musiqi elmimizin bir çox terminlərlə əhatə olunduğunu mühüm bir maraqla müşahidə edirik: klassik musiqi, ənənəvi musiqi, ənənəvi professional musiqi, etnomusiqi, folklor və s. Bir araşdırmaçı kimi özüm özümə verdiyim sualların çoxu məhz bu və bundan irəli gələn problemlər ilə bağlıdır. Ənənəvi musiqi nədir? Ənənəviliklə folklorun fərqi nədir? Folklor musiqisi professional ola bilərmi? Klassik musiqi nədir? Qərbin klassikasınımı, yoxsa Şərqin ənənəviliyinimi seçməli? Həqiqətən də, suallar çoxdur.**

Mövzunu başlamadan öncə bəzi anlamların, terminlərin mənasına varmaq və onları açıqlamaqda fayda var deyə düşünürəm. Çünki bir sözün, ifadənin, terminin həqiqi mənasını anlamasaq düzgün nəticəyə də gəlməmiş olarıq. Öncə folklor və ənənəvi musiqidən başlayacam.

İngilis kəlməsi olan "folklor" sözünün kökü "folk"dur, "xalq" deməkdir. Folklor isə (ing. folklore) xalq yaradıcılığı, xalq bilimi deməkdir. Almancada bu söz volkskunde [folkskunde], fransızcada isə "traditions populaires"[tğədision popüleğ] kimi istifadə olunur.( Doç.Dr.Metin Ekici. "Halk, halk bilimi ve halk bilgisi üzerine bir deneme." Milli Folklor. 2012/45. Səh.2) Folklor kəlməsinin bir termin olaraq tarixi çox da qədim deyildir. Belə ki, bu termin ilk dəfə 1846-cı ildə Uilliams Toms (Williams Thoms) tərəfindən irəli sürülmüş, 1891-ci ildə baş tutmuş millətlərarası Folklor konqresindən sonra isə bütün dünyaya yayılmışdır.

Hər bir xalqın folkloru vardır, çünki hər bir xalqın tarixi, həyata baxışı, arzuları, inancları, bunlardan doğan adəti, ənənəsi, yaşamla mücadiləsi vardır. Bunların hər biri fəaliyyətə dönərək, sözlə, musiqi ilə, təsvirlə, tətbiqi sənət nümunələri ilə və digər ifadələrlə təqdim edilir. Fəqət bu təqdimat insan tərəfindən yaradılmış və ya formalaşdırılmış qanun və sistemə deyil, təbiətin qoyduğu, zamanla qəlibləşən, tarixi proseslər süzgəcindən keçərək formalaşan ümumi cəhətlərə, xüsusiyyətlərə dayanır.

Örnək olaraq deyək ki, sadə xalq nümayəndəsi bir hava qoşarkən, o prosesə nəzarət etmir, xalq dili ilə desək, "içindən gəldiyi kimi" oxuyur. Daha elmi dillə ifadə etsək, buna intuitiv yaradıcılıq deyə bilərik ki, bu da gələcəkdə bir sistem üçün zəmin yarada bilər. Toplumların taleyi isə fərdlərdən və ya bir qrup insandan asılı olur. Həmin fərdlər xalqın ənənələrinə, milli düşüncə tərzinə, dini baxışlarına, həyat fəlsəfəsinə dayanaraq, hər hansı bir fəaliyyəti bir sistem halına gətirir. Sistemə əsaslanan bir fərd artıq "içindən gələni", yəni intuitiv yaratmaq istəyini yaradıcılığa necə dönüşdürəcəyini, hansı üsullarla, hansı vasitələrlə həyata keçirəcəyini bilir və öz sahəsində yeni cığırlar açmağa çalışır. Bu, artıq sistemdir və ondan irəli gələn texnologiyadır. Zaman içində ictimai, siyasi proseslər xalqa və onun həyatının hər sahəsinə təsir göstərir. Zaman keçdikcə texnologiya dəyişir və yenilənir. Bu proseslərin nəticəsində xalqın milli mədəniyyəti formalaşır, o isə öz növbəsində uyqarlığa dönüşür.

Beləliklə, folklor musiqisi sadəcə rastgələ yaranan musiqi, sistemli musiqi isə klassik musiqidir.



Yeri gəlmişkən "klassik" sözü ingiliscə classical, almanca klassik, fransızca classique, italyanca "classica/classico" kimi ifadə edilir. Kəlmənin kökü latın dilindəki "classicus" sözünə əsaslanır və tərcümədə "nümunəvi", "nümunəvi səviyyəli" deməkdir. Əslində, kəlmənin tarixi qədimlərə dayanır. İlkin istifadə dövründə Roma İmperiyasındakı təbəqələşmədə yüksək təbəqəyə - class işarə etdiyi iddia edilir.

Yeri gəlmişkən "klassik" sözü ingiliscə classical, almanca klassik, fransızca classique, italyanca "classica/classico" kimi ifadə edilir. Kəlmənin kökü latın dilindəki "classicus" sözünə əsaslanır və tərcümədə "nümunəvi", "nümunəvi səviyyəli" deməkdir. Əslində, kəlmənin tarixi qədimlərə dayanır. İlkin istifadə dövründə Roma İmperiyasındakı təbəqələşmədə yüksək təbəqəyə - class işarə etdiyi iddia edilir.

Yuxarıda bəhsini etdiyim məsələ - folklordan klassik musiqiyə qədərki yolu Avropa musiqisi çərçivəsində arqumentləşdirmək maraqlı olar. Avropa musiqisi klassikdirmi? Bəli. Əvvəla, Avropada yaşayan hər bir xalqın folklor musiqisi vardı. Əsrlərlə inkişaf edən və Antik mədəniyyətdən əsillənən, Orta əsrlərdən başlayaraq isə özünü o torpaqlarda möhkəmlədən Xristian mədəniyyətinin sayəsində bu qitədə dini musiqi yaranmış, daha sonralar inkişaf edən bu musiqi kilsə hüdudlarını aşaraq həm kilsədə, həm də ondan kənarda öz inkişaf yolunu davam etdirmişdir. Avropa musiqisi İtalyan mədəniyyətindən qaynaqlanaraq öz major-minor, yəni diatonik musiqi sistemini yarada bilmişdir. Bu sistem içində zaman-zaman yenilənən texnologiyalar yaratmışdır. Məsələn, polifonik texnologiya, homofonik texnologiya, dodekafonik texnologiya və s. Bu texnologiyalar tərkibində yeni janrlar meydana gəlmişdir. Məsələn, concerto grosso, kantata, sonata, oratoriya, opera, simfoniya və s. Təbii ki, Avropa musiqisi klassikdir. Amma buradan bir sual yaranır. Avropa musiqisi kimin üçün klassikdir? Avropalılar üçün, yoxsa bütün dünya üçün? Bir Azərbaycan vətəndaşı - istər kəndli, istər şəhərli, simfoniya dinləyərkən onu anlaya bilirmi, və ən azından ondan zövq ala bilirmi? Zənnimcə, xeyr. Çünki bir azərbaycanlı italyan, alman, fransız və s. Avropa musiqisinin dilini bilmir. Dil isə bildiyimiz kimi bir məfhumun ən ümdə cəhətidir - milli mənsubiyyətin. Deməli, araya milli mənsubiyyət və bundan doğan milli təfəkkür anlayışı girir. Məhz buna görədir ki, ortaq mədəniyyətə malik olsalar da, biz italyan musiqisini fransız musiqisindən, ingilis musiqisini alman musiqisindən ayıra bilirik. Təbii ki, bunu ta uşaq vaxtından aldığımız musiqi təhsilinə borcluyuq.

"Musiqinin müəyyən toplumlarda ortaq duyğu və düşüncələri təsirli şəkildə ötürməsi nəticəsində insanlarda milli bir musiqi anlayışı doğmuşdur," - deyir Mehmet Nuri Uygun (Mehmet Nuri Uygun. Safiyyüddin Urmevi. Kitabül-Edvar. İnceleme, Neşir & Tercüme. İbn Haldun Üniversitesi yayınları. İstanbul, 2019. 448 s. səh.16). Bu fikrin, zənnimcə, üç əsas nöqtəsi vardır: "müəyyən toplum", "ortaq duyğu və düşüncələr" və onların "təsirli şəkildə ötürülməsi". Müəllif öncə musiqini müəyyən bir toplum içində sərhədləşdirir, sonra formalaşmış bir cəmiyyətin ortaq duyğu və düşüncələrinin olduğunu vurğulayır. Bu, ənənəvilik və ya folklorluq səviyyəsidir. Daha sonra isə bu duyğu və düşüncələrin sadəcə ötürülməsi deyil, məhz "təsirli şəkildə ötürülməsi"nin milli musiqi anlayışını doğurduğunu deyir. Ötürülmənin təsirli olması üçün onu necə ötürməli olduğunu, yəni texnologiyasını bilməlisən. Bu isə artıq "nümunəvilik"dən xəbər verir. Deməli, klassik musiqi həm də milli musiqidir.

Daha da irəli gedərək dahi bəstəkarımız, musiqi mədəniyyətimizdə yeni bir dövrün əsasını qoyan Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" elmi işində yazdığı fikirlərə nəzər yetirək:

"Azərbaycan xalq musiqisinin əsaslarını öyrənmək sahəsindəki işimin, bir bəstəkar olaraq, mənim üçün əməli əhəmiyyəti o oldu ki, mən «Koroğlu» operasını yazdım.

Azərbaycan xalq musiqi sənətinin əsasını təşkil edən ciddi qanun-qaydalar, (mən öz operamı yazarkən bunları əsas tutmuşam) nəinki mənim yaradıcılıq qayəmə məxsus həyəcan və meylləri boğdu, əksinə, bu qanun-qaydalar bir bünövrə olaraq azad yaradıcılıq fantaziyasının geniş üfüqlərini aydın işıqlandırıb mənə daha artıq cəsarət verdi. Sərbəst qurulmasına və musiqi fakturasının mürəkkəb olmasına baxmayaraq, «Koroğlu» operası Azərbaycan dinləyicilərinə Azərbaycan xalq mahnı və melodiyalarını eynilə təkrar edən bəzi əsərlərdən daha yaxşı çatır, çünki «Koroğlu» operası xalqın doğma musiqi dilində yazılmışdır.

Azərbaycanlı olmayan dinləyicilərin «Koroğlu» operasına böyük diqqət yetirməsi o deməkdir ki, bu operanın milli xüsusiyyətləri nəinki onu başqa xalqlardan təcrid edir, əksinə, bunlar operanın beynəlmiləl əhəmiyyətini daha aydın göstərir." (Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları")

Məncə, şərhə ehtiyac yoxdur.

Daha bir böyük şəxsiyyət, türk musiqi alimi Əbu Nəsr əl-Farabi öz "Musiqi harmoniyası haqqında" traktatında yazır:

"Musiqi istifadə edilən dilin sintaksisinə tabedir. O, eyni zamanda dialektikayla bağlı iki sənət növünün - ritorika və poeziyanın qaydalarına əməl edir." (Alğ-Farabi. Estesstvenno-nauçnıe traktatı/Per. s arabskoqo. - Alma-Ata: Nauka, 1987. - 496 s.)

Əl-Farabi və digər alimlərimiz konkret olaraq türk musiqisini araşdırır, ümumilikdə isə şərq musiqisinə xitab edirdi. Bəs necə oldu ki, böyük bir musiqi mədəniyyətini və hətta musiqi uyqarlığını biz günümüzdə ənənəvi, etno və folklor musiqisi kimi qəbul edirik? Burada Üzeyir bəyin daha bir fikrinə istinad etməkdən özümü saxlaya bilmirəm:

"Yaxın Şərq xalqlarının musiqi mədəniyyəti XIV əsrə doğru özünün yüksək səviyyəsinə çatmış və on iki sütunlu, altı bürclü «bina» (dəstgah) şəklində iftixarla ucalmış və onun zirvəsindən dünyanın bütün dörd tərəfi: Əndəlisdən Çinə və Orta Afrikadan Qafqaza qədər geniş bir mənzərə görünmüşdür. ...

XIV əsrin axırlarına doğru baş verən ictimai, iqtisadi və siyasi dəyişikliklərlə əlaqədar olaraq, bu möhtəşəm musiqi «binasının» divarları əvvəllər çatlamış və sonralar isə büsbütün uçub dağılmışdır." (Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları")

Üzeyir bəy bizə çox önəmli mesaj verir. Çətin siyasi-ictimai şəraitdə yazılmış bu mesajı biz qəbul etməli və onu araşdırma mövzumuz etməliyik.

Azərbaycan xalqının iki böyük musiqi mədəniyyəti, musiqi sistemi və bu sistemə dayalı institutu vardır: aşıq sənəti və muğam sənəti. Az öncə Avropa musiqisi üzərindən etdiyim səthi və acizanə təhlilimi indi milli musiqimiz üzərində həyata keçirmək istəyirəm.

Azərbaycanın folklor musiqisi varmı? Var. Ona əsaslanan aşıq və makam musiqi sistemləri var. Bu sistem Üzeyir bəyin dediyi kimi müəyyən dövrə qədər inkişaf etmiş və texnologiya gətirmişdir. Muğam sənətində bu texnologiyanın adı dəstgah, aşıq mədəniyyətində - dastandır. Bu texnologiyalar içində müxtəlif janrlar yaranmışdır: təsnif, rəng, mahnı, türkü, qayda, çağırış və s. Bu sistemin öz terminologiyası varmı? Var: hava, havacat, əzgi, güftə, boyatı, açılım, dəramət, bərdaşt, şöbə, guşə, ayaq və s. Azərbaycan musiqisinin elmi əsasları var. Bunun ən böyük sübutu və örnəyi Üzeyir bəyin elmi əsəridir. Deməli, muğam sənəti klassik sənətdir, aşıq sənəti klassik sənətdir. Öncə Azərbaycan bəstəkarının, sonra isə Azərbaycan aliminin qarşısında duran vəzifə onları klassik sənət səviyyəsinə çıxarmaq və inkişaf yolunu təmin etməkdir.

**Leyla Həmid Əhməd Xan**

Hürriyyət

Baxış

SİZİN ÜÇÜN QƏZET

№03 (3246) 24 Yanvar / 2023-cü il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



Ölkədə 1988-ci ilin noyabrında başlayıb, 1991-ci ildə SSRİ-nin çökməsi ilə nəticələnən hadisələr yaşlı nəslin yadındadır. O zaman bir tərəfdən imperiyanın dağılmasının nəticəsi olaraq bütün milli respublikalarda imperiya sahiblərinin zorla Moskvaya tabe edilərək, əvvəlcədən düşünülmüş şəkildə iqtisadi strukturlarını da hörümçək toru kimi toxumaqla Rusiyadan asılı vəziyyətə salındığından, Azərbaycanın iqtisadi sistemi də təbii olaraq dağılıb, məhv olmağa məhkum edilmişdi. Bu amil təkcə sadə vətəndaşları deyil, ölkənin ziyalı, məmur təbəqəsinin ən azı adi məişət səviyyəsində mövcudluğunu da real təhlükə qarşısında qoymaqla bərabər, həm kütlə, həm də ölkənin hüquqi, inzibati və s. sistemlərində müdhiş bir xaos və anarxiya mühiti yaratdı.

# Artıq “Tərtər 2”-yə start verilib




Ölkənin bu vəziyyətindən suiistifadə edərək hakimiyyəti ələ keçirmək istəyən müxtəlif, başqa yeni yaranmış milli respublikaları, o cümlədən də xüsusilə Azərbaycanı imperiyanın əsarətində, heç olmasa öz orbitində saxlamağa çalışan Rusiyanın dəstəklədiyi qüvvələrin arasında gedən sərt, kəskin mübarizə ilə yanaşı, Rusiya-Ermənistan-İran “trio”sunun birbaşa iştirakından əlavə, Avropa və ABŞ-ın Azərbaycana tətbiq etdiyi “907-ci düzəliş” qəbilindən olan təpkilər şəraitində ölkə əhalisinin əmək qabiliyyətinə malik olan əhalisinin 70-80 faizi iş tapıb, pul qazanaraq özlərinin, həm də Azərbaycanda qalan yaxınlarının mövcudluğunu təmin etmək məqsədilə Rusiyaya üz tutdular.

O zaman Rusiyada hakimiyyət başında olan Yeltsinin və onun ətrafının şəxsən Heydər Əliyevə qarşı son dərəcə mənfi məxsi münasibəti, eləcə də Rusiyada 150 ildən bəri Rusiyanın bütün hakimiyyət və s. strukturlarına hopanaraq vahid sistemdə birləşmiş ermənilərin ruslarla birgə azərbaycanlılara qarşı apardıqları təbliğatla bərabər, polisin, OMON-un Türk respublikalarından gələnlərə, xüsusilə azərbaycanlılara qarşı tez-tez cəza tədbirləri həyata keçirilirdi. Belə vəziyyətdə, qarlı-şaxtalı Rusiya iqlimində yaşamaq üçün heç bir şəraiti olmayan yerlərdə qalmaqla, bazarlarda meyvə, paltar satan, hətta küçələri süpürən azərbaycanlı, vaxtilə Azərbaycanda elmi fəaliyyətlə məşğul olan alimlərə, müxtəlif orta səviyyəli vəzifələrdə çalışmış məmurlara rast gəlmək adi hala çevrilmişdi. Çox zaman insanın ağlına belə gətirə bilməyəcəyi əzablara sinə gərib, o dövrdən bəri, bu gündək orada iqtisadi və s. sahələrdə yerləşə bilmiş, Azərbaycan vətəndaşlarının sayı iki milyon nəfər civarındadır. Bu insanların hamısı Rusiyada işləyib yaşaya bilmələri üçün müxtəlif yollarla həm də Rusiya vətəndaşlığı ala bilmişlər.

Ukraynanı bir neçə gün ərzində işğal və ram edərək, əsarətə alacağını düşünüb, 2022-ci ilin fevral ayının 24-də bu ölkəyə qarşı işğalçı müharibəyə başlayan Rusiya bu ölkənin rəhbərliyi ilə müxtəlif millətdərdən ibarət Ukrayna vətəndaşlarının monolit birliyi və həmrəyliyinə əsaslanan işğalçılara qarşı qəhrəmanlığı, inadlı müqaviməti nəticəsində ciddi uğursuzluqlara düçar olub. Nəticədə çoxlu hərbi texnika və canlı hərbi qüvvə itirdikdən, eləcə də bütün dünya ölkələri və dünya ictimaiyyəti tərəfindən müxtəlif xarakterli, Ukraynaya hərbi, humanitar yardım, ictimai rəy təpkiləri, habelə Rusiyaya qarşı çoxsaylı sanksiyaların tətbiqi ilə üzləşdikdən sonra ölkə daxilində özünün etnik dayağı olan rusları özünə qarşı çevirməmək məqsədi ilə öz döyüşkənliyi ilə seçilən Türk xalqları ilə birlikdə çeçenləri də hərbi səfərbərliyə cəlb etdi.

Müasir hərbi hazırlığa malik olmayıb ön cəbhəyə göndərilən və məhv edilən Rusiya hərbçilərinin sayı yüz minə çatdıqda isə, dövlətdən narazılığı artıq partlayış həddində qərarlaşan Rusiya ictimaiyyətinin qəzəbini bir qədər neytrallaşdırmaq məqsədilə Rusiya hökuməti ölkədə fəaliyyət göstərib, Rusiya vətəndaşlığı olmayan əmək miqrantlarını belə müxtəlif məcburi və maraqlandırma yolları vasitəsilə Ukrayna cəbhəsinə - real ölümə göndərməkdədir. Təbii ki, işğalçı müharibədə qalib gələcəyi halda Rusiyanın növbəti işğal obyektinin onların öz doğma vətəninin olacağını bilən bu insanların mütləq əksəriyyəti Kremlin bu imperialist iddialarının qurbanı olmamaq üçün öz vətənlərinə qayıdırlar. Bu kontingentin Rusiyadan çıxa bilməməsi üçün Kreml özünün həm yerüstü, həm də hava sərhədlərində imkanı olan bütün maneə və qadağaları qoyub. Ara-sıra bu maneə və qadağalardan yayına bilənlər öz vətənlərinə qayıdıb ailələrinə qovuşur. Onların bir hissəsi də doğma Azərbaycana qayıdıb gələn Azərbaycan vətəndaşlarıdır.

> Müasir hərbi hazırlığa malik olmayıb ön cəbhəyə göndərilən və məhv edilən Rusiya hərbçilərinin sayı yüz minə çatdıqda isə, dövlətdən narazılığı artıq partlayış həddində qərarlaşan Rusiya ictimaiyyətinin qəzəbini bir qədər neytrallaşdırmaq məqsədilə Rusiya hökuməti ölkədə fəaliyyət göstərib, Rusiya vətəndaşlığı olmayan əmək miqrantlarını belə müxtəlif məcburi və maraqlandırma yolları vasitəsilə Ukrayna cəbhəsinə - real ölümə göndərməkdədir...

Bir müddət öncə millət vəkillərinin bəziləri, səhv etmirəmsə Fazil Mustafa, Razi Nurullayev və s. haqlı olaraq Rusiyada yaşayan soydaşlarımıza Ukrayna ilə müharibəyə getməyib, vətənə qayıtmaları barədə çağırışlar da səsləndirmişlər. Məzmun və mahiyyət etibarilə bu müraciətlər obyektiv və ədalətli idi. Oxucuya məsələnin mahiyyəti dəqiq və obyektiv aydın olsun deyə, onun bir neçə cəhətini qeyd edək.

Birincisi, hazırda Rusiya və Ukraynada yaşayan soydaşlarımızın birlikdə ümumi sayı 3 (üç) milyon civarındadır. Onların 1 (bir) milyona yaxını sağlam, aktiv əmək qabiliyytli, birinci və ikinci Qarabağ döyüşləri iştirakçıları da daxil olmaqla, hərbi xidmətdə olub, hərbi xidmət hazırlığı olan 50 yaşına qədər Azərbaycan vətəndaşlığı ləğv edilməmiş, lakin əsasən şəxsiyyət vəsiqələrinin, xarici pasportlarının etibarlılıq vaxtı keçmiş kişilərdir. Bunu da qeyd edim ki, onların əksəriyyəti, hətta işləməsələr belə ailələrini dolandıra biləcək, ölkədə müxtəlif iş qurmağa bacarığı və vəsaiti olan insanlardır. Yəni onlar dövlətə yük olub, dövlətdən ev, maddi təminat, uşaq pulu və s. istəyəcək kontingent də deyil. Bir əhəmiyyətli detal da budur ki, müharibəyə getməkdən yayınıb Rusiyadan, Ukraynadan Avropaya, Türkiyəyə, hətta Azərbaycanın özünə mühacirət edib, əslən rusiyalı, ukraynalı vətəndaşları bütün dövlətlər qəbul edib, sığınacaq və maddi yardım da verdiyi halda, Azərbaycanda əslən azərbaycanlı olub, Azərbaycan vətəndaşlığı ləğv edilməyib, şəxsiyyət vəsiqəsinin və ya xarici pasportunun etibarlılıq müddəti keçmiş vətəndaşlarımızın bu sənədlərinin yenisi ilə əvəzlənməsinə, Azərbaycan Konstitusiyası və ondan irəli gələn bütün qanunların ziddinə olaraq, Daxili İşlər naziri tərəfindən «MÜHARİBƏ QURTARANA QƏDƏR», yəni Rusiya-Ukrayna müharibəsinin sonunadək, şifahi olaraq QADAĞA QOYULUB. Bu isə mahiyyəti etibarilə ölkənin genefonduna, eləcə də ölkənin hərbi hazırlığa malik, canlı hərbi potensialının iki yad ölkənin iddiası, mənafei, qələbəsi naminə, «TƏRTƏR - 1» qətliamından yüzlərlə dəfə genişmiqyaslı QƏTLİAMA MƏHKUM EDİLMƏSİDİR. «TƏRTƏR-1» qətliamında həlak olanların ailə üzvlərinin, insanlıq anlayışına sığmayan vəhşi işgəncələrə məruz qalaraq, ömürlük fiziki və mənəvi cəhətdən şikəst olanların özlərinin və yaxınlarının, həyatının bir hissəsini qanunsuz, ədalətsiz olaraq zindanda keçirənlərin dövlətçiliyimizə qarşı yaranmış nifrətini neytrallaşdırıb xoş, isti münasibətini, məhəbbətini bərpa etmək mümkün olmadığı kimi, «TƏRTƏR-2»-nin də baş verəcək daha dərin və genişmiqyaslı fəsadlı nəticələrinin də aradan götürülməsi mümkün olmayacaq.

Bu gün «TƏRTƏR-1»-in dəhşətlərini, ictimai maraqlarımızı özlərinin şəxsi maraqlarından, həyatlarının təhlükəsizliyindən üstün tutub, əyninə «kəfən» geyib, ölümdən, zindandan qorxmayaraq ictimailəşdirərək, bu cinayətlərin rəsmən araşdırılmasını reallaşdıran millətsevərlərimiz müəyyən dərəcədə buna nail olsalar da, bir neçə xırda «kilkə» həbs edilib, cinayətin əsas təşkilatçıları olan «akulalar» hələ də azadlıqda, hətta vəzifələrində asudə zəngin həyat sürməkdədirlər.

Bu gün cəmiyyətimiz ölkənin genefondu və hərbi hazırlıqlı, canlı hərbi potensialımızın məhvinə yönəldilmiş bu cinayətkar qərarın həyata keçirilməsinə susaraq onun ləğv edilməsinə nail olmasa, sabah daha böyük və dəhşətli fəlakətlərlə üzləşməyimiz obyektiv reallığa çevrilərək qaçılmaz olacaq.

«TƏRTƏR-2» fəlakəti isə, məhz «TƏRTƏR-1» fəlakəti ilə eyni mənbədən, eyni səviyyədə, eyni xəttlə cəmiyyətimizin üstünə şığımaqdadır. Yəni fəlakət üstümüzə eyni dalğa, eyni koordinatlarla gəldiyi kimi, bir müddətdən sonra, millət çarəsiz durumda, bu cinayətlərin təşkilatçıları, rəhbərləri də «TƏRTƏR-1»-in «akulaları» kimi azad və firavan həyat sürməkdə olacaqlar.

30 ilə yaxındır ki, ölkədə qəribə, heç bir sağlam məntiqə yaramayan bir hal yaranıb. Ermənjyə güllə atan igidlərimiz müxtəlif şərböhtan, əsassız, məntiqsiz müstəntiq-məhkəmə qərarları ilə zindanlara atılaraq çürüdülür, yaralı qazilərimiz övladlarına quru çörək, yaralarını sağaltmağa dərman almaq üçün pul tapmadığından intihar edir, əhalini, dövlət büdgəsini milyardlarla dollar məbləğində talayanların təşkilatçıları tamamilə cəzasız qalaraq asudə firavan həyat sürür, onların sıravi icraçıları simvolik cəza alaraq, tezliklə əvf olunub, taladıqları milyardların bir hissəsi özlərinə qaytarılır. 30 il daim bizə qarşı hərbi cinayətlər törətməklə məşğul olan, yurdlarımızı viran qoyan ermənilərə Azərbaycan vətəndaşlığı, şəxsiyyət vəsiqəsi, xarici pasportunu bizdən qəbul etmələri üçün onlara yalvarır, bizə qarşı heç bir cinayət törətməmiş, bizə xəyanət etməmiş, qanları qanımızdan, canları canımızdan olan Azərbaycan vətəndaşlarımıza qanunla, həm də halallıqla onlara məxsus olan etibar müddəti keçmiş sənədlərini dəyişməkdən imtina edib onları labüd məhvə məhkum edərək, cəmiyyətimizi, dövlətçiliyimizi diz çökdürürük. Biz hara gedirik, daha doğrusu, BİZİ HARA SÜRÜYÜRLƏR?

Ortaya çox maraqlı bir sual çıxır: Daxili İşlər nazirinə belə bir göstəriş vermək hüququ və imkanı olan, Moskvanın və ermənilərin Azərbaycandakı “5-ci kolon”unun rəhbəri Ramiz Mehdiyev və Əli Həsənov və s. kimi, onun əlaltıları artıq neytrallaşdırılıb. Görəsən, nazirə belə bir müdhiş göstəriş verməyi ona, hansı kolonun, hansı rəhbəri əmr edib?

Son vaxtlar həyata keçirilən kadr islahatlarının cəmiyyətə heç bir müsbət dəyişiklik gətirmədiyi bir daha sübut edir ki, toplananların yeri dəyişdikdə cəm dəyişmir. Elə Səlim Müslümovun Sahil Babayevlə əvəz edilməsi kimi. Yenə də cəmiyyətdə mövcud olan belə çoxsaylı eybəcərliklərin qarşısına sədd çəkmək üçün ölkədə mövcud iqtisadi-ictimai sistemin yenilənməsindən başqa yol olmadığı aydın görünür.

**Şapur QASİMİ**

# Ətrini itirmiş qadın

## (hekayə)

*Tezliklə gəlirəm. Yuyunma.*
*(Napaleonun arvadına döyüşdən qayıdanda göndərdiyi sifariş)*

Mənim bu hekayətimin tarixçəsi var, nədənsə qadınlarla bağlı başıma çox şey gəlir. Tanışlığımızın... günüydü. Onun yaşı hələ şahlıq taxtında idi. Boyu orta deyildi, uzun sarışın saçlarına qayçı dəyməmişdi. Bədəninə yaraşan paltar geyinmişdi. Hər görüşdə eyni cür görünürdü. Onun kosmetikaya meyli açıqca duyulurdu. Və bir gün çarpayıda ulduzları sayanda özümdən soruşmuşdum: “Görəsən bu bər-bəzək məni özünə ram etmək üçündürmü?” Cavabına tələsməmişdim. Görüşümüz dənizin kimsəsiz guşəsində oldu. Maşını qayaya yaxın çökəkdə saxladım. Hava istiydi, güman ki, bir azdan çılpaq ayaqlar bizə yaxınlaşacaqdı. Özümü rəsmi aparırdım. Qadınların xasiyyətidir: İfrat qılığına girəndə istədiyinin yoluna zərif qıfıl vururlar, kişinin zəif nöqtəsini həssaslıqla tapırlar.



- Dənizin yaşılını sevirəm, bu rəngdə cavanlıq rəmzi olur. - Özümə məxsus kövrək səslə dedim. - Bir baxın bütün rənglərin qatışığında yaşıl apaydın görünür. - Sözlərimin ahəngini pozmadım.

- Bu barədə düşünməmişəm. - Astadan dilləndi, əlini dənizə uzatdı. - Mənə elə görünür hansısa dalğanı çağırır. İstərdim dalğa məni qucaqlasın, bütün bədənimi isitsin.

- Dalğa dənizin içərisindən gələn nəfəsdir. Sahilə verir, özü boşalır.

- Hər şeyi tez öyrənməyə çalışan kişisən. Mən sirr saxlamağı bacaran qadınam. Yaşım çox deyilsə, razıyam onun təcrübəsindən.

Profildən gözucu baxırdım, uzun sifəti, iri gözləri, zirvədə qanadını gərən qara qartalsayağı qaşları ağappaq üzünə kölgə salmırdı. Dodaqları səhər açılan, axşamüstü yorulan gül ləçəklərinə bənzəyirdi. Qəfil mənə sual versəydi bu gözəl qadında başqa gizgiləri də kəşf edəcəkdim.

- Sənətiniz yazıçılıqdır, eləmi? - Sual verdi. - Ötən gün ağzınızdan qaçırdınız.

Başımla təsdiqlədim və onun burnunun, sifətinin ritmini necə tamamladığına ötəri nəzər yetirdim. Ürəyimdən keçdi ki, onun burnunu həvəslə sıxaram gözləri yaşarınca, güzəştə getmərəm. Bu anda ağ cunaya bükülmüş dalğa daşa çırpıldı və cuna tikələnib ayaqlarımız altında köpükləndi.

- Yazanlar qadın naz - qəmzəsinə qarşı dözümlü olurlar. Bunu özümdən quraşdırmıram, oxumuşam.

Mənə çevrildi, iri qara gözləri dənizin yamyaşıl rəngini dağıtdı. Üzü bu rəngə bulaşdı. Qəfil sol əlimi bu rəngə batırmaq istədim. Hərəkətsizliyilə reaksiya verdi, vəssalam. Mən peşimanlamış kimi əlimi çəkdim, çılpaq və ağ baldırlarının qayada hərəkətinə baxırdım. Ləpəmi, dalğamı ürəyimi oxumuşdu, bir əlçim şor suyu baldırlarına səpdi, hətta bir qətrə açıq sinəsinə qədər yol gəldi. İstədim bu şəffaf damcını tutam və dodaqlarımda dadını duyam. O, bəlkə də mənim ürəyimdən keçəni bir qadın hissiyyatıyla qiymətləndirmək istəyirdi. Belə olmasa idi yumşaq, rəngi qaçmış əlini sağ çiynimə qoymazdı. Üstəlik, sağ baldırını qaldırdı, barmaqları bulaşmış qum gilələrini çırpdı. Mən onun əlinin soyuqluğunu duymaq iqtidarında deyildim. Sadəcə, onun üçün qürrələnirdim ki, xanımın xoşuna gəlirəm. Və o, bir qadın kimi heç nəyini məndən gizlətməyəcək.

- Mənim vücudumu mənimsəyənə oxşayırdı. - Pıçıldadı və ayaqlarını qoşalaşdırdı. - Fikrimi dolaşıq dedim. - Kişi qadının bütün əzalarını “oxumalıdır”. Sonra “kəşfə” yol başlanır.

Əyilib yerdən xırda daş götürüb, dənizə tulazladı.

- Baxın, bu cırtdan daş o nəhəng dənizdə özünə yol açdı. Qadın vücudu da ona oxşayır. Kişi üçün özünə yol açır, həm də çətinlik çəkmədən. Onun belə qürurlu müqayisəsi xoşuma gəldi. Səadətin məndən uzaqda dayanmadığına sevindim. Lakin hələ ixtisasını bilmədiyim bu qadınla “oyunda” kimin qalib gələcəyi müəmmalı idi. Ümumiyyətlə, qadınlar barədə ehtiyatlı və qüsursuz danışmaq lazımdı.

Cüt qağayı bir-birindən xəbərsiz iki - üç addım aralıda qaya parçasına qondular. Birinin ağ sinəsi bizə sarı idi və mehdən titrəyirdi. O biri özündən razı halda dişi cinsinə xırda, qaynar gözləriylə baxırdı. Şübhəsiz, bu dəqiqə bu quşların yem həsrəti yoxdu.

- Bir onlara bax, - dedim. - Doyublar, amma başqa nəsə barədə düşünürlər. Maraqlıdır, onlar köhnə tanışdılar? - Sualı bu cür qoydum. - Elə isə...

- Deyirsən bir-birindən doyublar? Heç vaxt bu, mümkün olmur. - Dizinə uzanan nazik çit donunu bir barmaq qaldırdı. Əyilib nəsə götürmək istədi. Bu ara erkək qağayı başını bizə tərəf döndərdi və bayaqkı qaynar gözləriylə qadını süzdü. İlk dəfə quşun baxışının mənasız olmadığına inandım. O, gözləriylə nə haqdasa düşünürdü. Dişi qağayı nəsə hiss eləyib uçdu, erkək də qalxdı, bizim başımız üstündən bir-iki dövrə vurub, dənizə qanad aldılar.

- Mənim sözümü təsdiq eləyə bilərsən. Erkək quş mənim qadın olduğumu yaxşıca seçirdi. Quşlar gözləriylə əks cinsi duyurlar. Dəniz havası məni elə bil qocaldır. - Son cümləni yazıq bir səslə pıçıldadı və mənim gözlərimə baxdı. İlk dəfə onun baxışlarında qadın varlığından süzülən müəmmalı, amma zəruri ehtiyacı duydum. Bayaq da erkək qağayının gözlərində naməlum instikt vardı. Mövzunu dəyişmək istəyirdim. Hər halda dənizin soyuqluğu bu qadının hisslərini, xüsusilə, ehtirasını dadmağa mane olurdu. Və bir də ondan təklif gözləyirdim ki, söhbətimizi sakit bir xanədə - guşədə davam etdirək. Doğrusu, dəniz bu gün məndən heç nə ummurdu. Mən isə onunla “dil” tapmaqda çətinlik çəkirdim.

O, ayağa qalxdı, arxa hissəsinə yapışmış paltarı mehdən azca hərəkətə gəldi. Belinin incəliyinə heyrətləndim: Belə dolu və ritmik bədəni zəriflik iki yerə parçalaya biləcəkdimi? İxtiyarsız ayağa durdum, arxadan onun belini özümə sarı sıxdım. Bunu necə ehtiyatsız eləmişdimsə, bir hıçqırtı qopdu və döşləri ovcuma sıxdım. Fəhmən dənizdən əsən mehə qısqandım ki, bu döşlər hava udar və şişər. Beləcə və havasız əriməlidir.

- Burax, dəniz üşüdür bədənimi, sən də... - Səsi titrədi, başını yana çevirdi.

Yanaşı qaya parçası üstündə oturduq. O, astaca arxası mənə sarı əyləşdi. Baldırlarını qoşalaşdırdı və havada yellətdi. Barmaqlarının ucunda bir titrəyiş gördüm. Dırnaqlarına havanın ağlığı hopmuşdu.

- Yeganə vurulduğum ayaqlarımdır. Qısqanıram kişilərə, - dedi və sağ əlini dənizə uzatdı. - Bayaqkı qağayıları, inanın. Bizə baxıb... - Susdu və havada hörülən saçlarını yığışdırmaq istədi. - O quşların xətrinə dənizi tərk eləyək. Yalvarıram. - Səsinin ahəngi dəyişmişdi. Bu, dənizin laqeyd havasından deyildi.

- Sən, bax bu dəniz paltarında yatağa girərsənmi? - Sualı ikibaşlı verdim. - Paltarı altındakı o mütənasib bədənini kişi çarpayısına beləcə verərdinmi? - Sualımı tamamlamaq üçün qoydum.

O, məlahətli kişi öpüşünə ehtiyac duyan dodaqlarını islatdı. Saçından bir barmaq ağzına apardı, çeynədi.

- Yox, - dedi və əlavə elədi: - Yataqda qadının qoxusu kişi burnunu oxşamalıdır. Dünyanın ən şəhvətli qadınlarına xasdır bu. - Sinəsini burnuma apardı.

- Qoxula. - Ehtirasdan uzaq səslə əmr elədi.

Mən əsəbi və məmnun ehtirasla onun sinəsini öpüşlərə qərq elədim. Nəfəsimin ahənginə heç bir reaksiya vermirdi.

- Qəribə qoxun varmış. - Səsimin ahəngində bu sözlər boğulurdu, xilas eləmək ehtiyacım vardı.

- Tərpənməyin. - Güclə pıçıldadım və onun ovcunu, saçını, boğazını öpürdüm, qoxulayırdım.

Handan-hana özümə gəldim, az qala bu hərəkətimin xəcalətini çəkəcəkdim.

- Sabah görüşərikmi? - Məqamı ötürülmüş ehtirasın öləziməsində dedi bu sözləri və ilk dəfə dodaqlarımdan öpdü. - Dadlıdır, mənimki isə bu gün soyuqdur.

Biz maşında əyləşib, dənizə baxırdıq. Mən dənizin soyuqluğunu aparırdım. Vədə əməl eləməmək qeyri - mümkündü. Şənbə günü bir otaqda, iki günlük telefon söhbətlərinin təsirindən çıxmamışdım, güman ki, adını və sənətini gizli saxladığım o qadın da. Amma vahimə içərisində idim, sarsılırdım. Nəyinsə baş verəcəyini duyurdum. Nə gizlədim, belə məlahətli qadınla İntim həyata qovuşmaq səadətdir.

O, ehtiyatsız oturdu, otağa göz gəzdirdi. Ağappaq divarlarda bər - bəzək yoxdu.

- Səliqəlidir, isti tutmur. - Araya söz saldı.

Mən bir kişi duyğusu ilə onu öz yanımda əyləşdirdim. Bədəni toxunanda qəribə duyğu canıma bıçaqla düşdü. Elə bil boğazıma çəkməyə tələsirdi, qanın yumşaq divana töksün, sonra ovcunda içsin.

Mən öz rolumu icra eləməliydim. Belindən ustufca yapışıb çarpayıya sarı apardım. O, israrla geri qanrıldı, divanda oturdu.

- Özüm soyunmağı xoşlayıram - dedi.

Köynəyini çıxartdı, ağappaq bədəni sudan son nəfəsinin ümidində yaşayan balıqdı, bənzətməsiz.

- Nəfəsini ver canıma. - Pıçıltısı havadaca yapışıb qaldı. - Donumu isə. Qoxula. Bax, beləcə.

Mən birdən onu möhkəmcə qucaqladım, öpüşlərin şahidliyilə qoxuladım və kənara çəkildim. Bu nəydi, sanki bədənimə qızıl ilan sarmaşmışdı. Və məni çalmağa hazırlaşmışdı. Özü də bu zəhərli ilanlar məlahətli, ətirlənmiş qadın bədənindən qidalanırdılar. Onun bütün əzalarına bulanmış ətir - qoxunun rəngini görürdüm. Təsadüfən bir ovuc saçı burnuma toxundu. Bu saçlar da qızıl ilanlar üçün ətirlənmişdi. O isə şaşqın halda idi, mənim nə edəcəyimin intizarını çəkirdi. Gözlərinə baxdım, öpmək iştahı keçdi ürəyimdən. Düşündüm ki, qızıl ilandan biri də onun kipriklərində qıvrılıb.

- Paltarını geyin. - Bilmədim bu sözlər necə dilimdən qopdu, fərqi yox idi mənim üçün. Bir azca səsimə yumşaqlıq qatdım. - İstəmirəm bədəninizin qoxusunu ömürlük yaddaşımda saxlayım. Vallah, ürəymcə deyil bu. O gün sən necə də məlahətliydin. Kəşf olunmamış qadın idin o gün.

Üzümü yana çevirdim, ixtiyarsız gözlərim yaşarmışdı.

- Heyif, bəzən qadınlar öz qiymətini puça endirir. Taleyinizlə daban-dabana gəzməyin. Taleyin sənə... - Boğazım tıxandı, sözümü tamamlamaqda çətinlik çəkdim. - Hə, paltar sənə yaraşır.

Vəziyyətdən çıxmaq istəyirdim.

O, heyrətlənmişdi, ehtirasını bir çarpayıya etibar elədiyi məqamda...

Onun bədəninə baxmaq istəmədim. Üzümü təmtəraqsız divara çevirdim. Halbuki, divar yalnız ziynətsiz görkəmilə öyünə bilərdi. Mənimsə öyünməyim qəfil gülləyə tuş gəlmişdi.

- Bəlkə beləcə qarşında ayaqüstə dayanım. Axı mən... - Üzünü yana döndərdi, qaralmaqda, hələ ümidini itirməkdə olmayan qəşəng üzünü gizlətməyə çalışmadı.

- Bəlkə... bəlkə... - Çiyinləri əsdi. Açıq, sarıya çalan döşləri titrədi. Üzüaşağı süzülən saçları sanki rəngini qaraya verdi.

- Bəlkə tələsmişik. Axı, mən sənə tabe oldum. Mən elə vüqarımı itirən qadın da deyiləm. Mən çox danışmağı, yalvarmağı xoşlamıram. Səni başa düşmək lazımdırmı?

O, sonuncu sözünü qəzəblə dedi və artıq paltarını geyinmişdi, qəzəb onu daha sərtləşdirmişdi. Bəxtimdən bunu büruzə vermirdi, sadəcə, bir qadın vücudunun başa düşülməməsi yanğısını götür - qoy eləyirdi.

- Əlini toxundur, çılpaq bədənim örtülmüşdür. - Üzümə müəmmalı nəzərlə baxdı və sözünü tamamladı. - Bu kösövlü əlini qadınlardan xilas elə, - dedi və donunun sonuncu düyməsini yoxladı. - Hələ səni başa düşə bilmirəm. Bəlkə də istəmirəm.

Onu hıçqırtı boğdu, dənizin yamyaşıl rəngində boğulmaq istəyən gözləri özünü şor suya atdı, çapaladı, boğulmaq təhlükəsini duyub sakitləşdi.

- Mən hər şeyi qadınlıq fəhminə bağışlamışam. Mən sanki hər şeyi düşünüb qəbul etmişəm. Yox, elə deyilmiş. Sənin böyüklüyünü mənim qeyri - adi bədənim duymaqda acizmiş. - Nəhəng dənizdə atılıb - düşən gözləri qapandı. Kirpikləri qırçın ləpələrin zoruna tab gətirmədi.

- Mən ağlayan qadın olmamışam. - Səsi az qala iradəmi özünə tabe edəcəkdi. - İstəmirəm mənim qoxumu mənimsəyəsən, istəmirəm. Bu ki mən özüməm, qısa vaxtda sənə təslim olmaq istəyən qadınam. Xahişim odur məni sonuncu dəfə o dənizdəki kimi öpüşlərində basdır.- Çalış məni ölmüş kimi qəbul elə. Mən taleyimin verdiyinin əksinə çıxmışam. Göz yaşımı qoxula. Bu özümünküdür.

Dodaqlarını araladı, sədəf dişləri işıq saçdı. Üst dodağı yasəmən yarpağı kimi titrədi. Mən ehtiyat elədim: ilahi, birdən onun dodaqlarında...

Divandan tərpənməmişdim. Qiymətli vücudu itirirdim və bununla...

O, qapıya tərəf addım atdı, sonda bu sözləri deyə bildi: - Doğulmaq, təmasda olmaq hər şey deyilmiş. - Artıq göz yaşını gizlətməkdə acizdi. Qapının zirəzəsindən yapışanda əllərimin titrəyişini görmədi. İstəyirdim bu qapı açılsın, amma bir mələyin qoxusu “güllələnsin”.

Liftin mənim üçün qorxunc uğultusu onu birinci mərtəbəyə aparırdı. Bəs, mən hansı mərtəbəyə enəcəkdim?

**Hakimiyyət quruluşu isə,**

# Pangeyanın sirri...

## Və yaxud qarşıda bəşəriyyəti nə gözləyir?


(Bax: Ay və Pangeya materikinin şəklinə)

**Bizə məlum olan odur ki, gələcəkdə bəşəriyyət bu quruluşların heç birində yaşamayacaq. Gələcək quruluşun adı İnformasionizm olacaq. Bu quruluşda əsas məsələ məlumat olacaq. Düzgün məlumat hər şeydən qiymətli olacaq...**

Bizi daimi izləyən oxucularımıza məlumdr ki, indiyədk məqalələrimizdə elmə məlum olmayan sirlərdən bəhs etmişik. Bugünkü yazımızda isə Ayın üzərindəki "ləkə"nin sirrini açacağıq.

Dünya yaranandan insan oğlu hər axşam bu "ləkə"ni görsə də, mənasını anlamadığından, bu barədə cürbə-cür əfsanələr yaratmşlar. Elmi-lədun araşdırmalarımız zamanı məlum oldu ki, bu "ləkə" əslində bir vaxtlar mövcud olmuş Pangeya adlı materikin xəritəsidir. Coğrafiya elmindən bilindiyi kimi, ilk yaranışda Yer kürəsi cəmi bir materikdən ibarət olub ki, onun da adı Pangeya olub. Həmin materiki əhatə edən okeanın adı isə Pantalas olub.

"Pangeoist" sözünün mənşəyi, "Pan os" - "tam", "bütöv", "kök" (özül); "geo" - "Yer" mənası verməklə, "bütöv Yer" mənasını bildirir. Bu ideyanın daşıyıcıları pangeyistlər adlanır.

Zaman keçdikcə həmin Pangeya materiki əvvəlcə iki hissəyə - Lavrasiya və Hondvanaya bölünmüşdür. Hazırda isə altı materik olduğu hamınıza məlumdur. Necə ki, bir atadan, bir anadan yaranan insanlar millətlərə, xalqlara parçalandılar; daha sonra irqlərə, dinlərə, təriqətlərə... bölündülər və hazırki hallarına gəldilər, həmin eyni atanın və ananın övladları artıq biri-birlərinə düşmən kəsilib. Bir xalq digərinin, bir din o biri dinin mənsublarının qanını içməyə hazırdır və içirlər də!

Araşdırmalarımız göstərir ki, yaxın vaxtda Azərbaycanda Pangeyizm ideologiyası meydana çıxacaq və bu ideologiya insanlar arasında yaranmış parçalanmanın qarşısını alacaq və Yeri əvvəlki halına - bütöv Yer - Pangeya halına gətirəcəkdir.

Pangeyistlər hərəkatının fəaliyyəti ilə Yerdə yaşayan bütün insanlar vahid bir ideya ətrafında birləşərək, bugünkü düşmənçiliyə və müharibələrə son qoyacaq, sülh, əminamanlıq şəraitində yaşayacaqlar.

Etiraf edək ki, bu gün bəşəriyyət arasında yaranan qarşıdurmanın kökündə ilk növbədə "din"lər dayanır. Daha dəqiq desək din mafiyaları (dinlərin mafiyalaşması) dayanır. Dünyaya açıq gözlə baxsaq "buddizim", "atəşpərəstlik", "musəvilik", "isavilik" və "İslam" adı altında fəaliyyət göstərən mafiyaların dünya sərvətləri, nüfuz dairəsi uğrunda necə qanlı savaş apardıqlarını görmək olar. Bu savaşda qazanan yuxarıda sadaladığım mafiyalar, onların başında duran mafiozlar; itirən isə onları din bilib, ardınca gedən sadə insanlardır. Bu mafiyalar insanları öz ardınca aparmaq, özlərinə tabe etdirmək üçün ibadətgahlar (kilsələr, sinaqoqlar, məscidlər...) düzəldir və ora "Allah evi" adı verirlər. Halbuki, Allah hər yerdə, özəlliklə də insanın qəlbindədir.

Mafiya başçılarının gəlir mənbəyi olan bu ibadətgahlarda əsas təbliğat onun üzərində qurulur ki, başqa dinlərə (yaxud təriqətlərə) mənsub olan insanlar sizin düşməninizdir və mütləq onları qətlə yetirib, sərvətlərini və yurdlarını əllərindən almalısınız. Onlar əsasən, savadsız, elmsiz, işsiz-gücsüz insanları öz təsiri altına salaraq, onlara maaş vəd verməklə, müharibələrə cəlb edirlər.

Nəticədə, müharibədə iştirak edən tərəflərə həm silahlarını satır, həm əsir götürdükləri insanları (onların daxili orqanlarını) satır, həm də qaratçilikdən, narkotik tranzitindən küllü miqdarda sərvət qazanırlar. Bir çox hallarda müharibədə iştirak edən əsgərlərin maaşlarını və sığortalarını da vermirlər (əsgərlər ölüncə döyüşür, ömürlərini mafiyaların yolunda qurban verirlər).

Bütün bunların qarşısını almaq, insanları din və dövlət mafiyalarının əsarətindən qurtarmaq üçün Pangeyizm ideologiyası insanlara elmlənməyi və bu mafiyaların quraşdırdıqları ibadətgahlardan "Allah evləri"ndən uzaq durmağı tövsiyyə edəcəkdir. Beləliklə, bu təbliğat bütün dünyaya yayılacaq və insanlar öz əvvəlki hallarına - birlik və sülh hallarına qayıdacaqlar.

### Pangeyizmdə insanlar dinsizmi olacaqlar?

Oxucuda sual yaranacaq ki, pangeyizm dövründə insanlar dinsizmi olacaqlar?

Əlbəttə ki, yox! Onlar Yaradanın birliyini qəbul edəcəklər. Öz fəaliyyətlərində elmə, əxlaqa, halallığa və dürüstlüyə - bir sözlə, bəşəri dəyərlərə üstünlük verəcəklər. Sadəcə, indi mövcud olan (mafiyaların nəzarətində olan) heç bir ibadətgaha getməyəcəklər və özləri də heç bir ibadətgah yaratmayacaqlar. Onlar yuxarıda qeyd etdiyimiz kimi, Allahın təkliyini, hər yerdə olduğunu qəbul edəcəklər. Bu səbəbdən onların inancı daha çox bütün kitab verilmiş peyğəmbərlərin babası olan İbrahim Peyğəmbərin təbliğ etdiyi Tovhidə (tək Allahlığa) uyğun gələcəkdir. Bildiyimiz kimi, Tovhid bütün dinlərin mənbəyi, başlanğıcıdır (həmin vaxt ibadətgah olmayıb).

**Pangeyizmdə inananlar İbrahim (Əleyhissəlam) fəlsəfəsini əsas götürəcəklər. Nədir İbrahim fəlsəfəsi? İbrahim fəlsəfəsi aşağıdakı xasiyyətləri özündə cəmləşdirməkdir:**

***-doğrudanışan olmaq, özünə rəva bilmədiyini başqasına rəva bilməmək;***

***-qarşındakını öz səviyyəndə bilmək;***

***-başqasının malına, namusuna göz dikməmək;***

***-yalnız Yaradana güvənmək;***

***-zinakar olmamaq;***

***-lovğa və təkəbbürlü olmamaq;***

***-hənif, ədalətli, vicdanlı, səxavətli, rəhimli və xeyirxah olmaq;***

***-Allahın dostuyla dost, düşməniylə düşmən olmaq;***

***-hər halında Allaha şükr etmək;***

***-Allaha aid olan işlərdən xeyir güdməmək;***

***-dünya işlərində səbirli olmaq;***

***-Allahdan başqasından qorxmamaq;***

***-istənilən halda (həyatına təhlükə olsa belə) ancaq haqqı demək və haqqın yanında olmaq ...***

Bir sözlə, bəşəri dəyərlərə təslim olmaq, bu dəyərləri özündə cmləşdirmək. Bütün bu dəyərləri özündə cəmləşdirəndən sonra insan hansısa bir dini qəbul edə bilər.

Təəssüf ki, bu gün heç bir dəyərlərə sahib olmayan adamlar özlərini dindar adlandırırlar. Hətta, belələri mafiyalar tərəfindən qəsdən dini rəhbər təyin edilir ki, insanların dinə, Allaha inamı azalsın, doğru yoldan azsınlar. Belə "din rəhbərləri" özləriylə bərabər, arxalarında dayananları da cəhənnəmə sürükləyirlər...

### Pangeyizmin düşməni eqoizmdir

Onu da qeyd edək ki, hər bir insan dünyaya gələndə pangeyist (sülhsevər, sülhyaradan) kimi doğulur. Fikir verirsinizmi, körpə uşaqlar həmişə evdəki mübahisələri yatırmağa, dalaşanları ayırmağa çalışırlar. İnsan yaşa dolduqca onda eqoizm güclənir və pangeyizm yoxa çıxır. Buradan aydın olur ki, pangeyizmin düşməni eqoizmdir. Yəni insanda eqoizm artdıqca, pangeyizmi (sülhsevərliyi) sıxışdırıb çıxarır. Yalnız peyğəmbərlər və Allah dostları öz pangeyistliklərini ölüncə qoruyub saxlaya biliblər. Bir sözlə, pangeyizm fəlsəfəsi elə yuxarıda izah etdiyim İbrahim fəlsəfəsidir. Ən böyük və mükəmməl pangeyist elə İbrahim Peyğəmbər olub. Azərbaycanda meydana çıxacaq (və yaxud, çıxmış) pangeyizm ideyası insanlara öncə İNSAN olmağı, sonra din qəbul etməyi tövsiyyə edəcəkdir. Bu səbəbdən bir çox din rəhbərləri (isavilər, musavilər, "islam"çılar...) ona qarşı birləşəcəklər. Baxmayaraq ki, bugünədək onlar dünyada sülhün yaranması üçün dua etməkdən dilləri qabar olub. Pangeyistin (sülhsevərin) dedikləri onları qane etmədiyindən, ona qarşı ilk növbədə "dindar"lar üsyan edəcəklər. Əslində mafiyozlar (zalımlar) həmişə olduğu kimi, bu işdə də "dindar"ladan öz məqsədləri üçün istifadə etməyə çalışacaqlar. Yəni dünyada sülhü bərqərar etmk istəyən Pangeyisti (xilaskarı) "dindar"ların əliylə gözdən salmağa çalışacaqlar...

Yazdığımız fikirlərin subyektiv olmadığını və Allahdan gələn bir xəbər olduğunu sübut etmək üçün Rəbbim bizə Ayın üzərindəki "ləkə"nin sirrini öyrətdi ki, bizə inanmayanlar Aya baxsınlar. Ayda gördüyünüz sirr doğrudursa, deməli bu yazdıqlarımız da doğrudur (Allahdandır).

### Düzgün məlumat hər şeydən qiymətlidir

Oxucuda sual yaranacaq ki, bəşəriyyət birləşib vahid hala gəldikdən sonra, ictimai quruluş necə olacaq?

Həqiqətən, maraqlı sualdır: bəşəriyyət gələcəkdə (pangeyizmdə) hansı quruluşda yaşayacaq -kapitalizm, sosializm, yoxsa kommunizm olacaq?

Bizə məlum olan odur ki, gələcəkdə bəşəriyyət bu quruluşların heç birində yaşamayacaq. Gələcək quruluşun adı İnformasionizm olacaq. Bu quruluşda əsas məsələ məlumat olacaq. Düzgün məlumat hər şeydən qiymətli olacaq.



**Paşa YAQUB,**
**Həkim, Elmi-lədun bilicisi**

### Meritokratiya olacaq

Pangeyizmdə hakimiyyət quruluşu Meritokratiya olacaq. "Meritokratiya"- savadlıların və ağıllıların hakimiyyəti deməkdir. Yəni insanlara mənsub olduqları partiyaya, dinə, nəslə görə deyil, malik olduqları savada, ağıla, dərrakəyə görə yanaşılacaq.

Onu da bildirim ki, həmin vaxt insanlarda elm çox güclü inkşaf edəcək və digər planetlərdə yaşayan canlıların elminə yaxın, bəlkə də onlardan çox olacaq.

Kamillik (pangeizm) dövründə mədəniyyət və incəsənət də indikindən güclü inkişaf edəcəkdir. Belə ki, tikilən binalar insanlara, heyvanlara və ağaclara bənzəyəcəkdir. Yəni memarlıq o qədər güclü inkişaf edəcək ki, istənilən görkəmli adama bənzəyən, sevdiyiniz heyvana, yaxud, xoşladığınız ağaca, gülə bənzər binalar sifariş edib, tikdirə biləcəksiniz...

### Pangeyizmdə kimlər müqəddəs sayılacaq?

Pangeyizmə görə, cəmiyyətin xeyri üçün çalışan, insanlara yaxşılıq, xeyirxahlıq edən, fəaliyyəti ilə bəşəiyyətə fayda verən hər bir şəxs Allahın vasitəçisidir və müqəddəs sayılır.

Dünyanı nə sevgi, nə gözəllik, nə də din xilas edəcək! Dünyanı ancaq və ancaq yaxılıq (gözəl əməllər) xilas edəcək. Yaxşılıq et, sən də müqəddəslərdən ol!